RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 184 (9063) BAZAR, 28 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Qətiyyətli və müstəqil siyasətin yaratdığı reallıq

### İlham Əliyevin uğurlu xarici diplomatiyası sayəsində Azərbaycan öz sözü və mövqeyi olan ölkə kimi tanınır

Azərbaycanın xarici siyasətində prioritet olaraq qəbul edilən məqamlardan biri beynəlxalq münasibətlərin dövrün tələblərinə uyğun tənzimlənməsidir. Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi onun çağdaş dünya nizamının reallıqlarına cavab verən xarici siyasət yeritməsindən bilavasitə asılıdır.

Ölkəmizin son iyirmiillik tarixinə nəzər saldıqda görərik ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursu Azərbaycanın beynəlxaq aləmdə imicinin yüksəlməsini şərtləndirib.

İlham Əliyevin son 19 illik siyasi-diplomatik fəaliyyəti, müstəqil siyasəti Azərbaycanı dünya ictimaiyyətinin diqqət mərkəzində olan və beynəlxalq aləmdə öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevirib. Müstəqilliyinin bərpasından ötən 31 ildə heç vaxt indiki kimi güclü, qüdrətli və istiqrarlı olmayan Azərbaycan bu gün dünya düzənində özünəməxsus yer tutan ölkələrdən biri kimi tanınır. Bunun yeganə səbəbi isə İlham Əliyevin tam müstəqil siyasət yürütməsi və ölkənin iqtisadi qüdrətinin getdikcə daha da güclənməsidir. Əgər dünyanın geosiyasi mənzərəsinə nəzər yetirsək, görərik ki, bu 31 ildə Azərbaycanın əldə etdiyi uğurları inkişaf etməkdə olan ölkələrin əksəriyyəti, bəlkə də, heç 50 ildə qazana bilməyib.

→ 4

## Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı təbrik edib



Avqustun 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı dövlətimizin başçısına və bütün Azərbaycan xalqına öz adından və Türkiyə xalqı adından sevinc hisslərini çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində öz adından və Azərbaycan xalqı adından Türkiyə Prezidentinə və qardaş Türkiyə xalqına təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı dostluq və müttəfiqlik əlaqələrimizin müxtəlif aspektləri müzakirə olundu, yeni təmaslar haqqında fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin şəxsi instaqram hesabında bununla bağlı etdiyi paylaşımda deyilir:

"Hörmətli həmvətənlər!

Əziz bacılar və qardaşlar!

Ad günüm münasibətilə təbriklərinizə görə sizə təşəkkür edirəm. Səmimi, xoş arzularınıza görə çox sağ olun! Sizin sevginizi, etimadınızı, dəstəyinizi və qayğınızı hiss etdikcə bir daha anlayıram - Ləyaqətli xalqımızın nümayəndəsi olmaq böyük xoşbəxtlikdir!

Vətənimiz və hər bir Azərbaycan vətəndaşı üçün dua edirəm.

Uca Allah Azərbaycanı bədnəzərdən, bütün bəla və müharibələrdən qorusun!

Hər kəsə möhkəm cansağlığı və uzun ömür bəxş etsin!

Bütün xəstələrə şəfa versin, onları ağrı-acılardan qurtarsın!

Allah bütün böyükləri, valideynləri qorusun, bütün atalara və analara uzun ömür nəsib etsin!

Qoy övladlarımız sağlam və xoşbəxt olsun!

Uca Tanrı Vətənimizin keşiyində dayanan hər bir əsgər və zabitimizi, bütün mərd oğul və qardaşlarımızı qorusun! Bütün şəhidlərimizə rəhmət, onların doğmalarına səbir diləyirəm!

Allah Prezidentimizə möhkəm cansağlığı, uzun ömür, güc və səbir versin! Onun yükü ağırdır, ancaq onun gücü ləyaqətli xalqımızın gücündə və birliyindədir!

Uca Allah, səhvlərimizi bağışla, mərhəmətini bizdən əsirgəmə, ölkəmizə sülh və əmin-amanlıq bəxş et! Hər kəsi doğru yola - sevgi və xeyirxahlıq yoluna yönəlt!

*Sevgilərlə,*

***Sizin MEHRİBAN".***

## Şuşada Azərbaycanın azad edilmiş ərazilərində aparılan bərpa və yenidənqurma işlərinə həsr olunmuş konfrans keçirilib

Avqustun 27-də Şuşada işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma sahəsində görülən işlər və planlar, postmünaqişə dövründə minatəmizləmə və şəhərsalma potensialının istifadə edilməsi və ümumi beynəlxalq əməkdaşlıq imkanlarına həsr olunmuş konfrans başa çatıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cənubi Qafqazın ən mühüm şəhərlərindən birinə çevrildiyini bildirib. Deyib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən bərpa və yenidənqurma layihələri sürətlə həyata keçirilir.

Prezidentin köməkçisi 30 illik işğal dövründə kəndlərin və şəhərlərin xarabalığa çevrildiyini, binaların dağıdıldığını qeyd edib. Bildirib ki, 30 il sonra bölgəyə yenidən həyat qayıdıb.

"Ermənilər tərəfindən basdırılmış minalar regionda bərpa işlərinin davam etdirilməsinə maneə yaradır. Azərbaycan dünyanın minalarla ən çox çirkləndirilmiş ölkərindən biridir", - deyə H.Hacıyev vurğulayıb.

Dünən Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçdiyini bildirən H.Hacıyev bu kəndlərdə heç zaman ermənilərin yaşamadığını qeyd edib.

"Azərbaycan daimi sülhün olduğu firavan region yaratmaq və Ermənistanın da regional əməkdaşlığın bir hissəsi olmasını istəyir. İki ölkə arasında danışıqlar əsasən sərhədlərin delimitasiyası, humanitar məsələlər, nəqliyyat-kommunikasiya və sülh sazişinin hazırlanması istiqamətlərində gedir", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Hikmət Hacıyev bəyan edib ki, bu ayın sonunda Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin görüşü baş tutacaq. Azərbaycan tərəfi ümid edir ki, bu görüşdə Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin mətninin hazırlanması ilə bağlı işçi qrupunun təşkili razılaşdırılacaq.

→ 3

## Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş şiddətli yağışlar və daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2022-ci il*




→ 4

## Baş nazir Əli Əsədov Pakistanın Baş naziri Şahbaz Şərifə başsağlığı verib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Pakistan İslam Respublikasında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar bu ölkənin Baş naziri Şahbaz Şərifə başsağlığı məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Pakistanın Baş nazirinə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verilib, faciə nəticəsində yaralananlara şəfa dilənib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan Senatının və Milli Assambleyasının sədrlərinə başsağlığı verib



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Pakistan İslam Respublikasında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar bu ölkənin Milli Assambleyasının sədri Raca Pərviz Əşrəfə və Senatın sədri Məhəmməd Sadiq Sancraniyə başsağlığı məktubları ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, S.Qafarova məktublarda həmkarlarına, qardaş Pakistan xalqına, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, faciə nəticəsində yaralananlara şəfa dilədiyini qeyd edib.

*"Azərbaycan"*

## Ərəb mediası Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva haqqında məqalələrin dərcini davam etdirir





Ərəb mediasında, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri, Oman və Misir mətbuatında avqustun 27-də də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalələr dərc olunub. Beləliklə, ümumilikdə 60-a yaxın ərəbdilli mətbu orqanda Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyəti haqqında geniş məlumat verilib.

AZƏRTAC xəbər verir ki, Misirin "Əl Cümhuriyyə Əl Yom", "Misr Əl Yom", "Kalemtərab", Birləşmiş Ərəb Əmirliklərinin "Əl Vatan", "Dubai Hospitality", "Dubai Global News", "Dubai New Style", "Mebusiness", "Middle East News", "Ecarain", "MENAFN", Omanın "Hörmüz" və sair qəzet və portallarında ərəb və ingilis dillərində dərc olunmuş məqalələrdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqına, dövlətinə sədaqətlə xidmət etmək vəzifəsini öz üzərinə götürdüyü, Azərbaycan qadınını dünyada layiqincə təmsil etdiyi, ölkəsinin rifahı naminə yorulmadan fəaliyyət göstərdiyi qeyd olunub.

Ərəb ölkələrinin ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Mehriban xanım Əliyevanın Azərbaycanın maddi və mədəni irsinin dünyada təbliğində misilsiz xidmətləri var. Belə ki, onun təşəbbüsü ilə 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub, rəhbərlik etdiyi Heydər Əliyev Fondu müxtəlif ölkələrdə mötəbər tədbirlər təşkil edib. O, həmçinin Heydər Əliyev Fondunun rəhbəri kimi təhsilin, səhiyyənin inkişafına, uşaqların sağlamlığı məsələlərinə və mədəniyyət sahəsində layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Azərbaycanda yeni məktəb binalarının tikilməsi, məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, uşaq evlərinin və internat məktəblərinin inkişafı proqramının icrasına başlanması məhz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilib.

Ərəb mediasının dərc etdiyi məqalələrdə qeyd olunub ki, Mehriban xanım Əliyeva valideyn himayəsindən məhrum olan uşaqların müdafiəsini də daim diqqət mərkəzində saxlayır. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, bütün dünyada rəğbət və mərhəmət rəmzinə çevrilib.

Yazılarda vurğulanıb ki, Azərbaycanın zəngin mədəniyyətini, musiqisini və adət-ənənələrini bütün dünyada təbliğ edən Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində mədəni irs nümunələri UNESCO-nun dünya irsi siyahılarına daxil edilib.

Mehriban xanım Əliyevanın mədəniyyətlərarası və dinlərarası dialoqun təşkili, müxtəlif dinlərə və etnik qruplara mənsub olan insanlar arasında tolerantlığın və xoş münasibətlərin təmin edilməsi sahəsində gördüyü işlərin də diqqətə çatdırıldığı məqalələrdə qeyd edilib ki, Birinci vitse-prezident Azərbaycanda ziyarətgahların, məscidlərin, ibadət yerlərinin, dini abidələrin bərpasına və tikintisinə də qayğı göstərməklə yanaşı, tolerantlığın və mədəniyyətlərarası dialoqun təşviqinə mühüm töhfələr verir, kilsə və sinaqoqların bərpasını da diqqət mərkəzində saxlayır. Azərbaycanın Birinci vitse-prezidenti dünyanın müxtəlif ölkələrində humanitar və sosial layihələrin dəstəklənməsinə, eləcə də dünya irsinin qorunmasına və tarixi abidələrin bərpasına da mühüm töhfələr verir. O, öz ölkəsində bir çox mötəbər beynəlxalq tədbirlərin keçirilməsində yüksək təşkilatçılıq bacarığı nümayiş etdirib, I Avropa Oyunlarının Təşkilat Komitəsinə sədrlik edib, həmçinin IV İslam Həmrəyliyi Oyunlarının təşkilində yüksək fəallıq göstərib.

Məqalələrdə diqqətə çatdırılıb ki, məhz bu çoxşaxəli humanitar fəaliyyəti Mehriban xanım Əliyevaya beynəlxalq aləmdə böyük nüfuz qazandırıb, o, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri titullarına layiq görülüb.

## Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan Hökuməti tərəfindən Pakistana yardım göstəriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Pakistan İslam Respublikasında çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılara səbəb olmuş şiddətli yağışların və daşqınların nəticələrinin aradan qaldırılması məqsədilə Azərbaycan Hökuməti tərəfindən bu ölkəyə 2 milyon ABŞ dolları məbləğində yardım göstəriləcək.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

## Azərbaycan Ordusunda idarəetmə müasir rəqəmsal rabitə vasitələri ilə həyata keçirilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun rabitə sistemləri imkanlarının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri müasir rəqəmsal rabitə vasitələri ilə təchiz edilib. İşğaldan azad edilən ərazilərdə dislokasiya olunan bölmələrin idarə edilməsində dünyanın ən qabaqcıl ölkələrindən alınan rabitə texnika və vasitələrindən istifadə olunur.

Azərbaycan Ordusunda dayanıqlı rabitənin təşkili və qoşunların gizli idarəedilməsi yüksək səviyyədə həyata keçirilir. Qarşı tərəfin radioelektron mübarizə (REM) vasitələrinə qarşı dayanıqlı yeni rabitə vasitələri alınaraq istifadəyə verilib.

Ordumuzun silahlanmasına həmçinin bir çox mobil rabitə kompleksləri də daxil edilib. Hazırda bu istiqamətdə görülən işlər davam etdirilir. Eyni zamanda Azərbaycan Ordusunun silahlanmasında olan döyüş texnikalarındakı rabitə vasitələri müasir radiostansiyalarla əvəzlənir. Cari ilin sonunadək bütün döyüş texnikalarının vahid sistemə çevrilməsi planlaşdırılır.

Bundan əlavə, ordumuzda müasir tələblərə cavab verən cihazlarla təmin edilmiş laboratoriyalar fəaliyyət göstərir. Burada da istehsalatla yanaşı, peşəkar radiomexaniklər tərəfindən cari təmir işləri həyata keçirilir.

Bu ilin iyulunda Müdafiə Nazirliyinin Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin yeni istifadəyə verilən, ən yeni texnoloji avadanlıqlarla təchiz edilmiş Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi Azərbaycan Ordusunun informasiya-kommunikasiya texnologiyaları mühitinə fasiləsiz müşahidə və nəzarəti həyata keçirməklə kibertəhlükəsizliyin təminatında xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunda rabitə işinin daha da təkmilləşdirilməsi ilə əlaqədar komandanlıq qarşısında qoyduğu tapşırıqlar yüksək peşəkarlıqla icra olunur.

## *Kəlbəcər sakini Bilal QARAŞOV:* "Ötən illər ərzində doğma torpağımın qoxusunu unutmadım"

"1993-cü ildə doğma yurdumdan məcburi köçkün düşdüm. Hazırda Gəncə şəhərində yaşayıram. Nə qədər rayon, şəhər gəzsəm də, öz torpağımın qoxusunu, ciyərlərimə çəkdiyim təmiz havasını, suyunu unutmadım. Uzun illərin həsrəti mənə doğma Kəlbəcərimin qədrini bilməyi öyrətdi. Ölkəmizin hər yeri gözəldir, amma hər kəsə doğulub boya-başa çatdığı, ayaq açdığı, gözəl günlərini keçirdiyi yer daha əzizdir. Bu illər ərzində öyrəndim ki, mən necə də əvəz-



olunmaz təbiətə malik bir yerdən uzaq düşmüşəm".

Bu fikirləri AZƏRTAC-a Kəlbəcər rayonu Dəmirçidam kəndinin sakini Bilal Qaraşov deyib.

"Bu sevinci bizə yaşadan Ali Baş Komandan, Prezident İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdaram. Hər günü bir tarix olan 44 gün ərzində alnımızdakı damğa silindi. Doğma yurduma ayaq basanda hiss etdim ki, mən torpağımı, torpağım da məni gözləyirmiş. Öz qanları, canları ilə bu torpaqları quldurlardan təmizləyən şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm. Biz öz doğma torpaqlarımızı yenidən dirçəldəcək və əvvəlki kimi canlandıracağıq" , - deyə B.Qaraşov bildirib.

## *Kəlbəcər sakini Əziz ABBASOV:* "Uzun illər ərzində ən böyük arzum doğma yurdumu yenidən görmək idi"

"Ölkəmizin başı üzərində qara buludlar dolaşanda mən də silahıma sarılıb irəli atıldım. 1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak etdim. Çox təəssüf ki, ovaxtkı şəraitdə nə qədər mübarizə aparsaq da, istədiyimizə nail ola bilmədik. Kəlbəcər uğrunda döyüşlərdə mənim silahdaşlarım şəhid oldular. Uzun illər həm doğma yurd nisgili, həm də şəhid dostlarımın intiqamını almaq hissi məni narahat buraxmadı. Mən 2020-ci ilin payızında - şanlı Zəfərdən sonra rahatlıq tapdım. Yarımçıq qalan mübarizəmiz Qələbə ilə yekunlaşdı, şəhidlərimizin qisası alındı, onların ruhu dinclik tapdı. Təəssüf ki, neçə-neçə qəhrəman Vətən oğlunu itirdik. Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, bu torpaqlara atdığımız hər addımda onları yad edəcəyik".



Bunu AZƏRTAC-a Birinci Qarabağ müharibəsi iştirakçısı, ehtiyatda olan kapitan, Kəlbəcər rayon sakini Əziz Abbasov deyib.

O, qeyd edib ki, uzun illər ərzində ən böyük arzusu doğma Kəlbəcəri görmək, yenidən doğma yurduna ayaq basmaq olub. "Yurdumu yuxularımda görürdüm. Hər zaman qaranlıq, dumanlı Kəlbəcər girirdi yuxularıma. Yayı da, qışı da zülmət, soyuq və günəşsiz idi. Kəlbəcər aydınlığa iki il əvvəl qovuşdu. Səmasında doğan günəşin qarşısını kəsən qara buludlar qovulandan sonra nura qərq oldu. Bu gün də mən günəşli, səması aydın Kəlbəcəri görürəm. Çox sevinirəm ki, yenidən öz yurduma ayaq basa bildim. Allahdan arzum idi ki, ölməyib bu günləri yenidən yaşayım. Çox sevinirəm ki, vaxtilə çiyin-çiyinə döyüşdüyüm və şəhid olan döyüş yoldaşlarımın məzarlarını ziyarət edə bildim".

# Ukraynalı uşaqlar Şamaxıya ekskursiya ediblər

Ukraynadakı vəziyyətlə əlaqədar valideyn himayəsindən məhrum olan 7-17 yaş arasında 28 uşaq onlar üçün hazırlanan mədəni proqram çərçivəsində avqustun 26-da Azərbaycanın qədim tarixə malik dilbər guşələrindən olan Şamaxıya gəlib.













AZƏRTAC xəbər verir ki, psixoloji, eyni zamanda tibbi reabilitasiya xidmətlərinin göstərilməsi üçün Heydər Əliyev Fondunun və Səhiyyə Nazirliyinin dəstəyi ilə Bakıya gələn uşaqların Şamaxıya səfəri məhz onların gərgin psixoloji vəziyyətdən çıxarılmasına kömək məqsədilə təşkil olunub.

Ukraynalı uşaqların Şamaxı ilə tanışlığı Tarix-Diyarşünaslıq Muzeyindən başlayıb. Burada onlara Şirvanşahlar dövləti, tarixi şəxsiyyətlər, insanların həyat tərzi, maddi-mədəniyyət nümunələri, tarixi abidələri barədə zəngin məlumat verilib.

Nahardan və istirahətdən sonra Şamaxıdakı Safari parkına gəzinti təşkil olunub. Parkla tanışlıq ukraynalı uşaqlar üçün xüsusilə maraqlı keçib. Bildirilib ki, 1040 hektar ərazisi olan Safari parkında 10 növ heyvan var və onların sayı ilbəil artır.

Təəssüratını bölüşən 14 yaşlı Vladislav Sovitski deyib: "Gözəl bir gündür. Uca dağlar, parkdakı heyvan sürüləri məndə xoş əhvali-ruhiyyə yaratdı. Doğrusu, Bakıya gələndən bəri hər yerdə hər kəsdən mehribanlıq, xoş münasibət görürəm. Bu, məni darıxmağa qoymur".

Bakı-Şamaxı-Muğanlı yolunun üstündəki "Abqora" restoranındakı gözəl xidmət, burada 14 yaşı tamam olan Andrey Zaliknyukun ad gününün qeyd olunması uşaqlarda xüsusilə xoş əhvali-ruhiyyə yaratdı.

Ukraynalı qonaqlar günün sonunda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında (ŞAR) olublar. Teleskopla ən yaxşı müşahidə dövrlərinin iyul-avqust aylarında olduğu vurğulanıb. Rəsədxananın fəaliyyəti çərçivəsində qalaktikaların, ulduzların, planetar dumanlıqların, Günəşin, planetlərin və kometaların müşahidəsi aparılır.

Günəş sisteminin 2-ci böyük planeti olan Saturnun teleskopla müşahidə edilməsi uşaqlar tərəfindən maraqla qarşılanıb.

Ukraynalı uşaqlar Şamaxı ilə tanışlıqlarının ikinci günündə Dəmirçiyə gəlib, yerli sənətkarların sexlərini gəzib, onların əl işlərinə - müxtəlif geyim, məişət və bəzək əşyalarına heyranlıqla tamaşa ediblər. 1918-ci ildən fəaliyyətə başlayan Dəmirçi Arxeologiya Muzeyindəki III-IV əsrlərə aid maddi-mədəniyyət nümunələri daha çox diqqət çəkib.

Sonra uşaqların Alpaka fermasına səfəri təşkil olunub. Bir saatdan çox heyvanlarla əylənən, onları həvəslə yemləyən uşaqlara Alpaka fermasında hədiyyələr də təqdim olunub.

Uşaqların tarixi Şamaxı Cümə məscidi ilə tanışlığı da maraqlı keçib. Onlara məscidin tarixi, burada aparılan bərpa işləri barədə məlumat verilib.

Şamaxı ilə tanışlıq ukraynalı uşaqlarda xoş təəssüratlar yaradıb.

## Heydər Əliyev Fondu və "BP Azərbaycan" şirkətinin dəstəyi ilə hazırlanan film "BBC World News"da





Tarixçi, yazıçı, aparıcı və məşhur "Dünya xəzinələri" sənədli filmlər silsiləsinin ssenari müəllifi və təqdimatçısı Bettani Hyuzun (Bettany Hughes) Azərbaycanın tarixi və mədəni xəzinələri barədə filmi "BBC World News" telekanalında nümayiş etdirilməyə başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu və "BP Azərbaycan" şirkətinin tərəfdaşlığı ilə hazırlanan film Böyük Britaniyanın "SandStone Global" Prodakşn şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi çərçivəsində ərsəyə gəlib.

Müəllif əsrarəngiz filmlərindən biri - "Azərbaycan möcüzələri" ekran əsərinin araşdırmaları və çəkilişləri üçün iyun ayında Azərbaycana səfər etmişdi.

Qeyd edək ki, iki hissədən ibarət filmdə Bakı, Şuşa, Qobustan və Şəkinin əfsanəvi və heyranedici tarixi və mədəni irs xəzinələri araşdırılıb və təqdim olunub. Filmin "İpək yolu" adlı hissəsi Qobustan və Şəki, "Odlar Yurdu" adlı hissəi isə Bakı və Şuşaya həsr olunub.

Filmin "Odlar Yurdu" adlı ikinci hissəsi avqustun 27-28-də "BBC World News" kanalında yayımlanacaq.

Filmin eyni zamanda Azərbaycan dilində versiyası hazırlanaraq təqdim ediləcək.

# Şuşada Azərbaycanın azad edilmiş ərazilərində aparılan bərpa və yenidənqurma işlərinə həsr olunmuş konfrans keçirilib



*Əvvəli 1-ci səh.*

Daha əvvəl Brüsseldə keçirilən görüşdə sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın yaradılması barədə razılıq əldə olunduğunu xatırladan Prezidentin köməkçisi bildirib ki, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinləri bu ayın sonunda Moskvada görüşəcəklər. Onlar nəqliyyat-kommunikasiya və delimitasiya ilə bağlı məsələləri müzakirə edəcəklər.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov şəhərdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib. Deyib ki, Şuşa işğaldan azad olunduqdan sonra şəhərin tarixi, mədəni və strateji əhəmiyyətə malik ərazilərinin, abidələrinin bərpasına başlanılıb. Əsas abidələr erməni vandalizminə məruz qalıb. Onların bir çoxu tamamilə dağıdılıb. Hazırda abidələrin bərpası və yenidən qurulması həyata keçirilir.















Xüsusi nümayəndə Şuşada dağıdılmış evlərin bərpası prosesinə də başlanıldığını qeyd edib. Diqqətə çatdırıb ki, hazırda bu proses davam edir, həmçinin yeni yaşayış məntəqələri inşa olunur və 2023-cü ilin sonunda evlər istifadəyə veriləcək. Eyni zamanda şəhərdə yeni məktəbin, şəhər xəstəxanasının, yeni məscidin və hotel kompleksinin inşa ediləcəyi vurğulanıb.

Daşaltı kəndinin böyük turizm potensialının olduğunu deyən A.Kərimov bildirib ki, kəndin baş planının hazırlanması işləri tamamlandıqdan sonra orada yenidənqurma işlərinə başlanılacaq.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışında bildirib ki, 30 illik işğal dövründə ermənilər regionun ekosisteminə ziyan vurub, etnik və mədəni abidələr dağıdılıb.

Otuz il ərzində işğal altında olan torpaqlara vurulan zərər barədə danışan xüsusi nümayəndə dağıdılmış ərazilərin sahəsinin çox geniş olduğunu, 54 min hektar ərazidə dağıntıların törədildiyini qeyd edib.

E.Hüseynov diqqətə çatdırıb ki, qısa müddət ərzində görülən tikinti-bərpa işləri dünya üçün nümunəvi sayıla bilər.

Xüsusi nümayəndə bütün bərpa və yenidənqurma işlərinin əsas istiqamətlərinin baş planın hazırlanması, infrastruktur layihələrinin həyata keçirilməsi üçün ərazilərin minalardan təmizlənməsi, sosial və ictimai infrastrukturlarla tam təmin edilmə və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması olduğunu vurğulayıb.

"Mədəni irsin qorunub saxlanılması bizim əsas prioritetimizdir. Ağdamda Cümə və Qiyaslı məscidləri bərpa olunub. Bundan əlavə, Ağdam və Füzulidə açıq səma altında İşğal və Zəfər muzeyləri də yaradılır", - deyə E.Hüseynov əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilanda indiyədək gerçəkləşən və həyata keçiriləcək layihələr haqqında danışıb. O, işğaldan azad edilmiş ərazilərə böyük Qayıdışın artıq başladığını, Zəngilanda "ağıllı kənd" layihəsinin həyata keçirildiyini diqqətə çatdırıb. O, bu layihənin reallaşdırıldığı Ağalı kəndində indiyədək 200 evin inşasının tamamlandığını və 150 evin tikintisinin planlaşdırıldığını deyib.

"Zəngilan dağıntılara ən çox məruz qalmış rayonlardan biridir. Zəngilanın yenidən qurulması və bərpası işlərində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqdadır", - deyə Vahid Hacıyev vurğulayıb.

Prezidentin xüsusi nümayəndəsi Zəngilanda hava limanının inşasının davam etdiyini də bildirib. O, həmçinin Zəngilanda ekoturizm və aqroturizm, eləcə də günəş enerjisindən istifadə üçün əlverişli şəraitin olduğunu qeyd edib. Deyib ki, bununla da regionun təbiətinə zərər vermədən bölgəni elektrik enerjisi ilə təmin etmək mümkün olacaq.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev işğaldan azad olunmuş ərazilərdə görülən memarlıq işləri barədə danışıb. O, işğaldan azad olunan bütün ərazilərdə tikinti işlərinin sürətlə davam etdirildiyini deyib.

Komitə sədri qeyd edib ki, hər bir rayonun özünəməxsus memarlıq xüsusiyyətləri var. Bərpa və yenidənqurma işləri zamanı layihələr bu xüsusiyyətlərə diqqət göstərilərək həyata keçirilir.

A.Quliyevin sözlərinə görə, oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə (UN-HABITAT) birgə əməkdaşlıq çərçivəsində Ağdamda Milli Şəhərsalma Forumu keçiriləcək.

"Hazırda keçmiş məcburi köçkünlərin tamamilə nə zaman köçürüləcəyini demək çətindir. İnanırıq ki, hər ötən il biz yeni kvotanı təqdim edə biləcəyik. Bu gün görülən işlər bunu deməyimizə əsas verir", - deyə Anar Quliyev bildirib.

Azərbaycan Respublikasının Dövlət Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov ölkəmizin böyük mina problemi ilə üzləşdiyini deyib. Qeyd edib ki, minatəmizləmə işləri davam edir, lakin problem böyükdür və bu, tikinti-bərpa işlərinə maneə yaradır.

ANAMA-nın sədr müavini Samir Poladov minaların insanların həyatına yaratdığı təhlükədən danışıb. O, işğal zamanı dağıdılmış ərazilərin də minalarla çirkləndiyini və bu yerlərin də təhlükəli ərazilər sayıldığını diqqətə çatdırıb.

"İndiyədək ümumilikdə 49 min 395,3 hektar ərazi minalardan təmizlənib, minalar və partlamamış hərbi sursatlar aşkar edilərək zərərsizləşdirilib. Həmçinin minaların partlaması nəticəsində 240 mülki və hərbçi həlak olub və ya yaralanıb", - deyə S.Poladov diqqətə çatdırıb.

Minaların insanların həyatına yaratdığı təhlükədən danışan S.Poladov işğal zamanı dağıdılmış ərazilərin də minalarla çirkləndiyini və bu yerlərin də təhlükəli ərazilər sayıldığını qeyd edib. Həmçinin bildirib ki, Ermənistan tərəfindən minalarla bağlı hər hansı xəritə təqdim edilməyib.

Samir Poladov vurğulayıb ki, minatəmizləmə işləri prioritet olaraq əsas nəqliyyat yollarında, mühüm infrastruktur binalarında, əsas rayon və kəndlərdə aparılır. Diqqətə çatdırılıb ki, minatəmizləmə əməliyyatlarının uğurla davam etməsi keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması prosesi və münaqişənin təsirinə məruz qalmış ərazilərin sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcək.

Sonda xatirə şəkili çəkilib.

Qeyd edək ki, konfransda Azərbaycanda akkreditə olunmuş, eyni zamanda Ankarada, Tehranda və Moskvada fəaliyyət göstərən qeyri-rezident səfirlər, beynəlxalq diplomatik korpusun digər nümayəndələri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, Türkiyə Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının yüksəkvəzifəli şəxsləri də olmaqla ümumilikdə 160-dan çox nümayəndə iştirak edib.

Nümayəndələr arasında Avropa İttifaqının, BMT-nin və bu təşkilatın Qaçqınlar üzrə Ali Komissarlığının, BMT-nin Uşaq Fondunun, İnkişaf Proqramının, Əhali Fondunun, Dünya Bankının, Türk Dövlətləri Təşkilatının, Türk Mədəniyyət və İrsi Fondunun, TÜRKSOY-un, Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın, Avropa Yenidənqurma və İnkişaf Bankının, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun, Beynəlxalq Miqrasiya Təşkilatının, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin nümayəndəliklərinin rəhbərləri, bütün qitələri əhatə edən, o cümlədən Böyük Britaniya, Niderland, İsveç, Danimarka, Belçika, Almaniya, İtaliya, Müqəddəs Taxt-Tac, Macarıstan, Portuqaliya, Polşa, Çexiya, İran, Səudiyyə Ərəbistanı, Qətər, Bəhreyn, Çin, Filippin, Avstraliya, Yeni Zelandiya, İndoneziya, Kanada, Dominikan, Qvineya, Salvador, Meksika, Panama, Argentina, Braziliya, Qvatemala, Uqanda, Ruanda, Sudan, Çad, Kamerun, Namibiya, Mərakeş, Liviya və digər ölkələrin səfirləri, səfirliklərinin əməkdaşları və hərbi attaşeləri yer alıblar.

Konfransa Türkiyədən qatılan diplomat və hərbi attaşelərin Ankara-Füzuli aviareysi ilə ölkəmizə gəlmələrinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Xatırladaq ki, konfrans iştirakçılarının işğaldan azad olunmuş ərazilərimizə səfəri Füzuli Beynəlxalq Hava Limanından başlayıb. Səfər çərçivəsində diplomatlar və hərbi attaşelər Füzuli şəhəri, eləcə də rayonun Dövlətyarlı kəndi ərazisində minatəmizləmə işləri ilə tanış olub, tapılmış minaların zərərsizləşdirilməsi prosesinə baxıblar. Sonra Şuşa şəhərinə yola düşən heyət Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi başa çatmaqda olan tunelə yolüstü baxış keçiriblər.

Konfransdan sonra iştirakçılar Şuşa şəhərinin görməli yerləri - Yuxarı Gövhər ağa məscidi və Şuşa Realnı Məktəbi, Cıdır düzü, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri yerləşən Şuşa şəhər mərkəzi meydanında olub, Şuşa qala divarlarını ziyarət edib, Qazançı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

## *Prezidentin köməkçisi:* "Azərbaycan dünyada ən nadir və ən dəhşətli postmünaqişə şəraiti ilə üzləşib"




"Azərbaycan regionda hərtərəfli sülhün tərəfdarıdır və bu xüsusda Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara hazırdır. Azərbaycan tərəfindən irəli sürülmüş təkliflər də bilavasitə buna dəlalət edir". Bu barədə Şuşada jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

H.Hacıyev qeyd edib ki, Azərbaycan dünya miqyasında postmünaqişə reallıqları çərçivəsində çox nadir və miqyası görünməyən yenidənqurma layihəsi həyata keçirir. Bu işlər məhz Azərbaycan hökumətinin öz səyləri, öz resursları, özünün bürokratik idarəetmə mexanizmi çərçivəsində reallaşdırılır. Beynəlxalq ictimaiyyət və diplomatik korpus tərəfindən də bu məsələyə ciddi maraq var. Çünki Azərbaycanın bu təcrübəsi dünyanın başqa regionlarında da tətbiq oluna bilər.

"Bu yaxınlarda BMT, Avropa İttifaqı və Dünya Bankı tərəfindən postmünaqişə, bərpa və quruculuq konsepsiyasına uyğun olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə geniş faktaraşdırıcı missiya həyata keçirildi. Onlar bununla bağlı ətraflı hesabat hazırladılar. Orada diqqətiçəkən iki vacib məqam var - onlar özləri də beynəlxalq ictimaiyyətin nümayəndələri olaraq etiraf edirlər ki, birincisi, bu miqyasda dağıntı olmamışdır, ikincisi isə dağıntıya münasibətdə belə sürətlə yenidənqurma və tikinti layihəsi olmamışdır. Bu bir daha onu göstərir ki, Azərbaycanın həyata keçirdiyi layihələr beynəlxalq ictimaiyyət tərəfindən də böyük diqqətlə izlənilir.

* * *

"Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilk növbədə ikitərəfli prosesdir. Bunun da irəli getməsi üçün hər hansı vasitəçilik mexanizminə yox, burada asanlaşdırıcı tərəflərə ehtiyac var. Hazırda Avropa İttifaqı, həmçinin Rusiya tərəfindən ikitərəfli əsaslarda müəyyən cəhdlər göstərilir və Azərbaycan bunda maraqlıdır". Bunu Şuşada jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, indiki halda gündəlikdə duran əsas məsələlər sülh müqaviləsi, sərhədlərin delimitasiyası, nəqliyyat məsələləri, həmçinin itkin düşmüş şəxslər və minalar problemləridir. Bunlara da ilk növbədə Ermənistan tərəfi cavab verməlidir.

"Dünən Laçın şəhərinin mərkəzinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən nəzarətə götürülməsi, Zabux və Sus kəndlərində Azərbaycan Silahlı Qüvvələrinin yerləşməsi və bu ərazilərin ölkəmizin tam nəzarətinə keçməsi bir daha ona dəlalət edir ki, cənab Prezident nəyi nə zaman və necə edəcəyini yaxşı bilir, siyasi, diplomatik, hərbi imkanlardan və ölkəmizin digər resurslarından istifadə edərək xalqımızı bu hədəflərə çatdırır. Dünən cənab Prezident o tvitlə müharibə dövründə yaşadığımız sevinci hər bir Azərbaycan vətəndaşına bir daha yaşatdı", - deyə Hikmət Hacıyev əlavə edib.

* * *

"Azərbaycan dünyada ən nadir və ən dəhşətli postmünaqişə şəraiti ilə üzləşib. Təəssüf ki, Azərbaycana münasibətdə BMT və onun altinstitutları tərəfindən hər hansı bir genişmiqyaslı fəaliyyət yoxdur. BMT-nin ali rəhbərliyi tərəfindən münaqişə başa çatandan sonra regiona hələ də heç bir səfər edilməyib". Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu barədə Şuşada jurnalistlərə açıqlamasında danışıb.

O vurğulayıb ki, normalda 30 ildən çox davam edən, bu qədər humanitar fəlakətlərə, faciələrə səbəb olmuş postmünaqişə şəraitində BMT-nin ali rəhbərliyi səviyyəsində regiona səfər həyata keçirilməsi, bu münaqişənin həll olunması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi faktları təqdir edilməli idi. Təəssüf ki, biz BMT rəhbərliyi tərəfindən, - necə ki, 30 il ərzində BMT Təhlükəsizlik Şurasının qətnamələri masa üzərində qaldı, - bu məsələdə də hər hansı bir ciddi fəaliyyət müşahidə etmirik.

* * *

"Şuşada keçirilən beynəlxalq konfransda iştirak edən səfirlər azad olunmuş ərazilərimizdə bu miqyasda dağıntıdan sonra Ermənistan tərəfindən beynəlxalq məhkəmələrdə Azərbaycandan təzminatların istənilməsi məsələsi ilə bağlı suallar ünvanladılar. Riyakarlığa baxın ki, Azərbaycana qarşı bu qədər dağıntı törədəndən, bu qədər vəhşilik və vandalizm həyata keçirəndən sonra Ermənistan Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Konvensiya əsasında Azərbaycana qarşı iddialarla çıxış edir. Bu iddiaları irəli sürən dövlət beynəlxalq ictimaiyyət qarşısında utanmalıdır. Hər halda Azərbaycanın cavabı çoxdur. Həmin konvensiyalar çərçivəsində və digər konvensiyaların imkanları da araşdırılaraq Azərbaycan Ermənistana qarşı iddialar irəli sürür. Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsində Azərbaycanın Ermənistana qarşı dövlət ittihamı əsaslı müraciəti var". Bu sözləri Şuşada jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

İşğal dövründə Zabux və Sus kəndlərində Ermənistan tərəfindən genişmiqyaslı qeyri-qanuni məskunlaşdırma siyasətinin həyata keçirildiyini deyən Prezidentin köməkçisi qeyd edib ki, bu, ermənilərin arzuladıqları formada geniş miqyas almayıb. Çünki onların burada yaşadıqları şərait xaricdən hər hansı erməninin gətirilib orada məskunlaşdırılması üçün cəlbedici ola bilməzdi. Amma müəyyən süni proqramlar həyata keçirilib. Bu, xüsusilə də Laçında, o cümlədən Zabux və Sus kəndlərində müşahidə olunur. "Ümumiyyətlə, işğal dövründə işğalçı ölkənin həmin ərazinin etnik-dini tərkibini dəyişdirməsi, mədəniyyət abidələrini məhv etməsi, arxitektura üslubunu dəyişdirməsi müharibə cinayətləri kimi tövsif olunan hallardır. Ermənistan tərəfindən həyata keçirilən bu addımlar, xüsusən Zabux və Sus kəndlərinə regionla hər hansı əlaqəsi olmayan, Yaxın Şərqdən olan insanların köçürülməsi belə hallardandır. Dövlətimizin başçısı tərəfindən bununla bağlı da müvafiq tapşırıqlar verilib. Təhlükəsizlik tədbirləri, minaların təmizlənməsi həyata keçiriləndən sonra müvafiq faktaraşdırıcı, sənədləşdirmə missiyaları həyata keçiriləcək", - deyə H.Hacıyev əlavə edib.

* * *

"Azərbaycanın mədəniyyət paytaxtı Şuşa Cənubi Qafqazın ən mühüm şəhərlərindən birinə çevrilib. Hazırda Azərbaycan hökuməti tərəfindən bərpa və yenidənqurma layihələri sürətlə həyata keçirilir". Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi- Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşada keçirilən konfransda çıxışı zamanı bildirib.

Prezidentin köməkçisi 30 illik işğal dövründə kəndlərin və şəhərlərin xarabalığa çevrildiyini, binaların dağıdıldığını qeyd edib. Deyib ki, 30 il sonra bölgəyə yenidən həyat qayıdıb.

"Ermənilər tərəfindən basdırılmış minalar regionda bərpa işlərinin davam etdirilməsinə maneə yaradır. Azərbaycan dünyanın minalarla ən çox çirkləndirilmiş ölkərindən biridir", - deyə H.Hacıyev vurğulayıb.

Dünən Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçdiyini bildirən Hikmət Hacıyev bu kəndlərdə heç zaman ermənilərin yaşamadığını söyləyib.

"Azərbaycan daimi sülhün olduğu firavan region yaratmaq, Ermənistanın da regional əməkdaşlığın bir hissəsi olmasını istəyir. İki ölkə arasında danışıqlar əsasən sərhədlərin delimitasiyası, humanitar, nəqliyyat-kommunikasiya və sülh sazişinin hazırlanması istiqamətlərində gedir", - deyə Prezidentin köməkçisi vurğulayıb.

***AZƏRTAC***




# Qətiyyətli və müstəqil siyasətin yaratdığı reallıq

## İlham Əliyevin uğurlu xarici diplomatiyası sayəsində Azərbaycan öz sözü və mövqeyi olan ölkə kimi tanınır

*Əvvəli 1-ci səh.*

### Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi gücü

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan cəmi 31 ilə güclü iqtisadiyyata, müstəqil siyasətə sahib qüdrətli dövlətə çevrildi. Dünya artıq müstəqil Azərbaycanı qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir.

Müstəqillik dövründə ölkə iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, valyuta ehtiyatlarını 53 milyard dollara yüksəltməsi hər ölkəyə nəsib olmayan möhtəşəm nailiyyətlərdir.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət kursu ölkəmizi strateji önəmi birmənalı etiraf olunan dövlətə çevirib. Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil siyasət həyata keçirən Azərbaycan son 19 ildə bütün istiqamətlər üzrə böyük uğurlar əldə edib.

Bu gün dünyada gedən ziddiyyətli geosiyasi proseslər, həmçinin qlobal pandemiya ilə mübarizə fonunda Azərbaycan həm sabitliyini təmin edir, həm də müstəqil xarici siyasət kursuna müvafiq olaraq beynəlxalq əlaqələrini daha da gücləndirir.

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərdən sonra isə regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

Yəni İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirmiş oldu. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini verir. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

### Yüksək nüfuzun göstəricisi

Bu bir həqiqətdir ki, İlham Əliyevin prezidentliyi dövründə respublikamız zamanı qabaqlayan inkişaf tempi ilə dünyanı heyrətləndirir. Bu qısa zaman ərzində Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli qlobal təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən İlham Əliyevin yürütdüyü müstəqil siyasət Prezidentin həm xalqın, həm də dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir.

Azərbaycan Prezidentinin ən mötəbər tədbirlərə dəvət olunması, aparıcı dövlətlərin rəhbərləri, dünyada nüfuzlu ictimai-siyasi xadimlər və digər şəxslərlə görüşləri həm özünün, həm də ölkəmizin yüksək nüfuzunun göstəricisidir.

Onu da xüsusi olaraq vurğulayaq ki, ötən ilin oktyabrında müstəqilliyimizin 30 illiyini qürur hissi ilə qələbə qazanmış, zəfər çalmış xalq kimi, dövlət kimi qeyd etdik. Bu il isə beynəlxalq əlaqələrimizin qurulmasının 30 illiyini fəxarətlə qeyd edirik. Bu uğurları dəyərləndirərkən İlham Əliyev qətiyyətlə vurğulayır ki, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı müstəqil yolundan döndərə bilmədi.

2022-ci il söylədiyimiz kimi, Azərbaycanın beynəlxalq əlaqələrinin 30-cu ildönümü kimi də tarixə yazılır. Müstəqilliyin bərpasından sonra Azərbaycan 1992-ci ildən başlayaraq dünyanın əksər dövlətləri ilə ikitərəfli, qarşılıqlı münasibətlər qurub, hətta onların əksəriyyəti ilə əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Həmçinin Azərbaycan beynəlxalq siyasi və iqtisadi təşkilatlarla da qarşılıqlı əlaqələr qurub.

Son 30 ildə Azərbaycanın yaratdığı diplomatik münasibətlər, beynəlxalq miqyasda sərgilədiyi mövqe tərəfdaş dövlətlərin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə göndərdiyi məktublarda, telefon zəngləri zamanı səsləndirdikləri fikirlərdə də öz əksini tapır. Bundan da görünür ki, dünya dövlətləri Azərbaycanla əməkdaşlığa böyük önəm verir.

Həmçinin Azərbaycanın beynəlxalq təşkilatlara sədrlik etməsi də ölkəmizə göstərilən etimadın əyani təzahürüdür. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlara sədrlik edir və üzərinə düşən öhdəliyi uğurla reallaşdırır. Təkcə BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrliyi nümunə kimi göstərmək olar. 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. İlham Əliyevin təşkilata sədrliyi dövründə irəli sürdüyü qlobalmiqyaslı təkliflərin beynəlxalq birlik tərəfindən təqdir edilməsi, müxtəlif qərarların qəbul olunması Qoşulmama Hərəkatının nüfuzunun daha da yüksəlməsinə xidmət edib.

### Azərbaycanın geosiyasi çəkisi getdikcə artır

Göründüyü kimi, İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanı ən etibarlı tərəfdaşa çevirib. 2003-cü ildə xalqın böyük etimadı ilə hakimiyyət estafetini götürən İlham Əliyevin ötən illərdəki çoxşaxəli fəaliyyəti Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.

İlham Əliyev prezidentlik fəaliyyətinin qürurverici hesabatını söyləyərkən bir məqamı çox doğru vurğulayır ki, Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur. Bunu şərtləndirən digər amil isə iqtisadi və siyasi müstəqillikdir. Son 19 ildə ölkəmizdəki iqtisadi müstəqilliyin yaratdığı reallıq tam müstəqil siyasətin yürüdülməsini şərtləndirib. Əgər bu, baş verməsəydi, bəlkə də indi Azərbaycan da bəzi ölkələr kimi forposta çevrilmişdi. Çünki iqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkirlər.

Bir sözlə, İlham Əliyevin düşünülmüş inkişaf konsepsiyası ilə Azərbaycan tam müstəqil siyasət aparır, qlobalmiqyaslı təşəbbüslərlə çıxış edir, istənilən məsələ ilə bağlı öz mövqeyini çəkinmədən ifadə edir. Bu da əlbəttə ki, Azərbaycanın geosiyasi çəkisini getdikcə artırır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qüdrətimiz, sərvətimiz

## Sərsəng Su Anbarının işə düşməsi ilə 100 min hektara yaxın torpaq sahəmizin suvarılma tələbatı tam ödəniləcək

İkinci Qarabağ müharibəsindəki şanlı zəfərimizdən sonra bütün dünyaya bəlli oldu ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində ölkəmizin iqtisadiyyatına, təbii sərvətlərinə də ciddi ziyan vurulmuşdu.

Düşmənin təcavüzkar hərəkəti işğal edilmiş ərazilərdə təbii resurslardan vəhşicəsinə istifadə edilməsi, transsərhəd çayların qəsdən çirkləndirilməsi, yüz minlərlə əhalinin içməli sudan məhrum edilməsi, münbit torpaqların eroziyası, susuzlaşması və səhralaşması ilə nəticələnmişdi. Elə götürək Sərsəng Su Anbarını. Onun 130 min hektar ərazini su ilə təmin edən və uzunluğu 6426 km olan suvarma kanalları şəbəkəsi, 185 kilometrlik kollektor və drenaj kanalları, 1429 artezian quyusu, 539 hidrotexniki tikinti obyektləri, 220 su-elektrik stansiyası, 88 nasos stansiyası, habelə ümumi həcmi 640 milyon kubmetrlik olan 8 su anbarı işğala məruz qalmışdı.

44 günlük Vətən müharibəsindəki şanlı zəfərdən sonra Azərbaycan dövləti heç kimdən yardım almadan, yalnız öz iqtisadi qüdrəti hesabına Qarabağ və Şərqi Zəngəzurdakı mühüm strateji obyektlərin bərpa-quruculuq prosesini həyata keçirir. Bu obyektlərdən biri də böyük ərazilərin suvarılma prosesində mühüm rol oynayan Sərsəng Su Anbarıdır. Tezliklə Qarabağ iqtisadi rayonunun bu strateji obyektinin istifadəsinə başlanılacaq. Bununla da 100 min hektara yaxın sahənin suvarma suyuna olan tələbatı tam ödəniləcək.

### 46 il öncə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən su anbarı

Qarabağ iqtisadi rayonunun mühüm strateji əhəmiyyətə malik olan Sərsəng Su Anbarı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Ümummilli Lider su anbarının açılışında şəxsən iştirak edib. Azərbaycanın ölkə daxilində yaranan ən bolsulu çaylarından biri olan Tərtərçayın üzərində olan Sərsəng Su Anbarının ümumi həcmi 560 milyon kubmetrdir. Su anbarı bəndində ümumi gücü 50 mvt olan su-elektrik stansiyası tikilib.

Birinci Qarabağ müharibəsinədək Qarabağın ən iri su hövzəsi olan Sərsəng Su Anbarı vasitəsilə 96 000 hektar ərazi (6 rayon - Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy) suvarılırdı. İşğaldan sonra Ermənistan tərəfindən 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəzolunmaz zərər vurdu. Bu azmış kimi mənfur ermənilərin su anbarına və onun qurğularına işğal altında qaldığı müddətdə texniki xidmət göstərmədikləri üçün qəzalı vəziyyətə düşmüşdü. Bu səbəbdən Sərsəng Su Anbarının aşağı byefində yerləşən əhali üçün ciddi təhlükə yaranmışdı.

Demək olar ki, Sərsəng Su Anbarı Ermənistan tərəfindən əhaliyə qarşı ekoloji terror vasitəsi kimi istifadə olunurdu. Qəza vəziyyətində olan su anbarından aşağıda yaşayan minlərlə əhali daim təhlükə altında idi.

Bundan əlavə, su anbarının işğalından sonra ermənilər illik su sərfinin 85-90 faizini su lazım olmayan vaxtlarda, xüsusilə qış aylarında buraxırdılar. Su sərfinin daha çox tələb olunduğu yay aylarında isə illik su normasının 10-15 faizi buraxılırdı. Bunun nəticəsində əkin sahələrinin suvarılması qeyri-mümkün olurdu. Nəticədə isə kənd təsərrüfatına xeyli ziyan dəyir, yaşıllıqlar susuzluq səbəbindən məhv olur, bölgədə ciddi ekoloji gərginlik yaranırdı.

Lakin İkinci Qarabağ müharibəsində ərazimizin işğaldan azad olunması Sərsəng Su Anbarından yenidən istifadə üçün real zəmin yaratdı və Azərbaycan dövləti məqsədəuyğun tədbirlər gördü.

Azərbaycan Ordusu tərəfindən Suqovuşan azad olunduqdan sonra Suqovuşan Su Anbarından suyun buraxılmasına nail olundu. Hazırda su anbarından buraxılan suların nizamlanması nəticəsində Tərtər, Goranboy və Yevlax rayonlarına suyun verilməsi, eyni zamanda ekoloji tarazlığın təmin olunması üçün mühüm addımlar atılır.

### Su anbarına baxış keçirilib

Sərsəng Su Anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir. Hazırda Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş bütün ərazilərdə mövcud su ehtiyatlarından daha səmərəli istifadə edilməsi, yeni su mənbələrinin yaradılması, dağıdılmış infrastruktur obyektlərinin bərpası istiqamətində mühüm işlər həyata keçirilir.

Bir neçə gün öncə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin nümayəndələri Sərsəngdəki yerli mütəxəssislərin iştirakı ilə su anbarına baxış keçirib. Məqsəd Sərsəng Su Anbarında texniki monitorinqin aparılması, cari vəziyyətlə tanışlıq, Tərtər çayından gələn və anbardan buraxılan suyun qrafikinin müəyyənləşdirilməsi və gələcəkdə bu istiqamətdə işlərin davam etdirilməsinə zəmin yaratmaq olub.

Görüşdə əsasən iki məsələ - su bölgüsünün aparılması və Sərsəng Su Anbarının alt suvarma ərazisində olan rayonlara su verilməsinin bərpası müzakirə olunub. Görüş və danışıqlar qarşılıqlı anlaşma və konstruktiv şəraitdə baş tutub. Həmçinin belə görüşlərin və əraziyə baxışın mütəmadi olaraq gələcəkdə də davam etdirilməsi razılaşdırılıb.

Qərara gəlinib ki, suyun verilməsi qrafik əsasında reallaşacaq. Burada prioritet ilk növbədə suvarmadır. Energetika məsələləri də öz həllini tapacaq.

Əminliklə deyə bilərik ki, işğaldan azad edilən ərazilərin bərpası üçün Azərbaycan lazımi təcrübəyə və iqtisadi potensiala malikdir. Artıq Azərbaycanın özünün təbii su resurslarına çıxış imkanları da genişlənir. Bu həm Sərsəng Su Anbarı, Suqovuşan və Xudafərin bəndinə aiddir. Bütün bunlar isə aqrar sektorda olan suvarma problemlərinin həllində kifayət qədər ciddi rol oynayacaq.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Ermənilər təşvişdədirlər

## "Niyə səs-küy salmısınız?! Torpağın sahibləri geri qayıdır"

Laçın şəhərində Azərbaycan bayrağının dalğalanması həm Ermənistanda, həm də Xankəndidə yaşayan erməniləri yaman təşvişə salıb.

Əslində, ermənilər bu məsələdə yanılmırlar. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyev ermənilərin də etiraf etdiyi kimi, bütün vədlərini yerinə yetirən lider olaraq növbəti qətiyyətli addımını atıb. Üçtərəfli Bəyanatda nəzərdə tutulmuş öhdəliyini 3 ilə deyil, il yarıma həll edərək Azərbaycanın gücünü, qüdrətini nümayiş etdirib. Bu da bir daha təsdiq edir ki, sözü imzası qədər keçərli olan İlham Əliyev yalnız xalqının maraqlarına uyğun siyasət yürüdür.

Bütün bunları indi ermənilər özləri də etiraf edirlər. Ermənistan mediasına, ekspertlərin, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, Zəfərdən sonra Qarabağa qayıdışın başlanması qarşı tərəfdə ciddi narahatlıq yaradıb.

Ermənistanın "Qraparak" qəzeti Laçın şəhərinin tam Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı yazır: "Bizə bildiriblər ki, azərbaycanlıların Laçına da qayıdışı fonunda Xankəndi və digər ərazilərdən mühacirət etmək niyyətində olan ermənilərin sayı kəskin artıb. Hətta Xankəndini heç vaxt tərk etməyəcəklərini deyənlər də indi getməyi düşünürlər. Deyirlər ki, Qarabağ birdəfəlik Azərbaycanın nəzarətinə keçir, belə olan halda burada qalan ermənilərin aqibətinin necə olacağı məlum deyil. Bu vəziyyətdə onlar köçməyə üstünlük verirlər. Ancaq geri dönmək istəsələr, Laçın dəhlizindən Azərbaycana buraxılmayacaqlarından da qorxurlar".

Qrant Avetisyan adlı biri isə tviterdə yazıb: "Niyə sülh müqaviləsi imzalamırıq? Artıq azərbaycanlılar Qarabağa, Laçına qayıtmağa başlayıblar. Vətənşüvənlik etmək lazım deyil, Qarabağ heç vaxt biz ermənilərin olmayıb. İndi dostluq zamanıdır. Müharibədən sonrakı qorxu hələ də canımızdadır. Paşinyan, sülh müqaviləsini niyə uzadırsan, kimlərdən qorxursan? Cəsarətli ol, İlham Əliyevdən nümunə götür".

Poqos Arutyunyan adlı feysbuk istifadəçisi isə məkan olaraq Laçın şəhərini qeyd edərək vahimə dolu status paylaşıb: "Nə vaxta qədər belə davam edəcək?! Azərbaycanlıların Qarabağa qayıdışı yuxularımızı qaçırdıb. Müharibədə Azərbaycana uduzduğumuzu görmüşdük, indi isə psixologiyamız pozulub. Belə qorxu nəyə lazımdır? Atam dedi ki, hazırlaşın, gələn ay İrəvana bibimgilə köçəcəyik".

Tevos Petrosyan adlı feysbuk istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamam tükənib: "Atam ehtiyatda olan hərbi zabitdir. Qeyd edir ki, Laçını unutduq, sırada Xankəndidir. Həmin bölgəyə çağırıblar, gizlənib getmir. Deyir ki, Paşinyan Ermənistan üçün nə edib? Qarabağ savaşında lazımsız itkilər verdik. Rəhbərlik müharibə adı ilə ciblərini doldurdu. Niyə səs-küy salmısınız? Torpağın sahibləri geri qayıdıb".

Karapet Alanyan adlı coğrafiya müəllimi "Odnoklassniki" sosial şəbəkəsində İlham Əliyevin Laçına qayıdışla bağlı sosial şəbəkədə paylaşımının əks olunduğu xəbərə münasibət bildirib: "Görəsən, bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İlham Əliyev Qarabağı bizdən geri aldı. İndi isə Laçını tərk etdik. Bu gedişlə isə İlham Əliyevin İrəvanda, Zəngəzurda qarşısına çıxacaq bir adam tapılmayacaq".

Serj Vazgenyan adlı biri isə tviterdə yazıb: "Müharibədən sonrakı qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı böyük işlər görür. Laçının boşaldılması ilə bağlı konkret vaxt qoydu, hədəfinə də çatdı. İndi məqsəd Xankəndidir. Hazırlaşın, orada yaşayan erməni qardaşlarım, bacılarım. Bəli, İlham Əliyev Xankəndidə bayrağını ucaltmağa hazırlaşır. Yalnız bir yol var, o da Azərbaycan vətəndaşlığını qəbul edib Xankəndidə qalmaq".

Daha bir Ermənistan vətəndaşı Armen Muradyan isə tviterdə belə bir status paylaşıb: "Nikol Paşinyana məsləhət görərdim ki, İlham Əliyevin verdiyi bəyanatlara diqqətlə qulaq assın. Müharibədəki səhvlərini təkrar etməsin. Yoxsa daha ağır məğlubiyyətə düçar ola bilərik. Bu gün Laçında yoxuq, sabah da Xankəndidə. Deyəsən, elə Qarabağ Azərbaycandır".

Henrix Minasyan isə "Odnoklassniki"də Laçın şəhərinin mərkəzində Azərbaycan bayrağının dalğalanması ilə bağlı paylaşımın altına belə bir şərh yazıb: "Açıq reallıq budur. Əliyev Laçını geri alması ilə Paşinyana əsl dərs verdi. Bizim Nikol bəs nə edəcək? Seyrçi mövqeyində qaldı. Deyəsən, Nikol Xankəndidə də Azərbaycan bayrağı görmək istəyir. Birdəfəlik orada yaşayan ermənilərə səslənin ki, Azərbaycan vətəndaşlığını qəbul edin, sizin də, bizim də canımız qurtarsın bu dava-dalaşdan. Bezdik axı".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Türk Dövlətləri Təşkilatı Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı bəyanat yayıb



Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyevin imzası ilə yayılan bəyanatda deyilir: "TDT Katibliyi 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın icra prosesinin davamı kimi Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsini məmnuniyyətlə qarşılayıb.

Təşkilat qardaş Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha bəyan edir, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində münaqişədən sonra apardığı bərpa-yenidənqurma səylərinə töhfə verməyə hazır olduğunu bildirir. TDT Cənubi Qafqazda sülh və sabitliyə, eləcə də məcburi köçkünlərin azad edilmiş torpaqlarına qayıtmasına xidmət edəcək diplomatik səylərin vacibliyinə diqqət çəkərək Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını dəstəkləyir".

# Yaponiya portalı Azərbaycan bayrağının Laçında ucaldılması barədə məlumatlar yayıb

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan bayrağının Laçın rayonunda ucaldılması barədə məlumatlar yayıb. AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayılan məlumatlarda avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması haqqında xəbərlər əksini tapıb.




Məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə etdiyi paylaşım xüsusi yer alıb. Dövlətimizin başçısının bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik etdiyi qeyd edilib.

# Azərbaycan Ordusunun Laçın şəhərinə daxil olması Gürcüstan KİV-inin diqqət mərkəzindədir

Azərbaycan Ordusunun Laçın rayonuna daxil olması və şəhərdə Azərbaycan bayrağının ucaldılması Gürcüstan KİV-inin diqqət mərkəzində olub. AZƏRTAC xəbər verir ki, Gürcüstanın "interpressnews.ge", "gaxa.ge", "aktual.ge", "kavkasia.net", "24news.ge", "aktual.ge" portallarında silsilə materiallar dərc edilib.

Azərbaycan, gürcü, ingilis və rus dillərində olan materiallarda oxuculara Azərbaycan Ordusunun bölmələrinin Laçına daxil olması və Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması, eləcə də Azərbaycan Prezidentinin bununla əlaqədar söylədiyi fikirlər barədə ətraflı məlumatlar çatdırılıb.

Materiallarda Laçın rayonunun tam Azərbaycan Ordusunun nəzarətinə keçdiyi qeyd olunub.

# İstanbulda Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı tədbir təşkil edilib

Avqustun 27-də İstanbulda Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) təşkilatçılığı ilə baş tutan tədbirdə mediaya açıqlama verilib.



İSTAD-nin rəhbəri Səfər Qaraqoyunlu tərəfindən verilən açıqlamada Azərbaycanın 44 gün davam edən Vətən müharibəsindən sonra 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatın ən önəmli məqamlarından birinin də Laçının tam olaraq Azərbaycanın nəzarətinə keçməsi olduğu bildirilib.

Azərbaycanın dillərə dastan olan şanlı Qarabağ Zəfərindən sonra digər torpaqlarla bərabər, Laçının da öz sahiblərinə qaytarılmasının böyük tarixi hadisə olduğunu vurğulayan dərnək rəhbəri bunun həm də türk tarixinin ən şanlı səhifələrindən biri olduğunu deyib.

Səfər Qaraqoyunlu bunun bütün türk dünyası üçün bir bayram olduğunu bildirib.

◆ **Dövlət başçısına minnətdarlıq**



# Laçınlıların duyğulu anları...

## Onlar doğma yurdlarına qayıdacaqlarının sevincini yaşayırlar

Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi 44 günlük Vətən müharibəsində əldə etdiyimiz hərbi qələbənin bizə verdiyi üstünlüklə qazanılmış növbəti diplomatik uğurdur.

Avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçib, ordumuz Laçın şəhərində yerləşib, Laçın şəhərinin mərkəzində Azərbaycanın üçrəngli dövlət bayrağı ucaldılıb. Bu xoş xəbəri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində olduğu kimi, ənənəsinə sadiq qalaraq tviter hesabından verdi. Bu xəbərə ən çox sevinən isə elə həmin yerlərin sakinləri oldular.

Təbii ki, 30 ildir Laçın həsrətində olan laçınlıların, zabuxluların, susluların sevincini, onların ata-baba yurdlarının ordumuzun nəzarətinə keçməsini sözlə ifadə etmək mümkün deyil. Belə bir gündə ermənilərin işğalı altında olan torpaqlarımızın azadlıq sevincini uşaqdan-böyüyə qədər hamı yaşayır. Doğma yurda dönmək üçün günlərini sayan laçınlılar öz sevinclərini bizimlə bölüşüblər. Onlar ilk növbədə Prezidentə minnətdarlıqlarını bildirirlər.

Laçın şəhər sakini Əhməd Heydərov deyir: "Bütün şəhid anaları qarşısında baş əyirəm. Bütün şəhidlərimizə ruhunuz şad olsun deyirəm. Bizə bu sevinci yaşatdıqları üçün Ali Baş Komandanımıza, qazilərimizə, onların ailələrinə cansağlığı arzulayıram. Düşünürəm ki, Laçına getdikdən sonra orada bütün işlərdə yaxından iştirak edəcəyik. Bu, bizim boynumuzun yüküdür.

Azərbaycan xalqı Prezidentinin, qəhrəman əsgərlərinin ətrafında sıx birləşib və "dəmir yumruq" olaraq 44 gün ərzində düşməndən torpaqları tam azad etdi. Daha çox sevindirici o oldu ki, ermənilər kapitulyasiya aktına imza atdılar. Laçın, Kəlbəcər, Ağdam bir güllə atılmadan belə qaytarıldı. Bu bir daha Azərbaycanın, Azərbaycan Prezidentinin daxili, xarici siyasətinin gücünü göstərdi".

Laçında anadan olan Fariz Quluyev anadan olduğu yerə gedəcəyi günü səbirsizliklə gözlədiyini deyir: "Laçın mənim doğulduğum torpaqdır. Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi xəbəri məni qürurlandırdı. Cənab Ali Baş Komandan var olsun, Azərbaycan əsgərinə eşq olsun! Tarixi torpaqlarımızda daim bayrağımız dalğalansın. Tezliklə doğma ocaqlarımızda evlərimizin işığı yansın. Ali Baş Komandanın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı".

### "Laçına dönmək ümidimizi heç vaxt itirməmişdik"

Azərbaycan Prezidenti ən doğru zamanda ən düzgün qərarı qəbul etməklə xalqımızın tarixi qələbəsini təmin etdi. Zabuxun və Susun boşaldılması fonunda müşahidə etdiyimiz erməni vandallığı onu deməyə əsas verir ki, onlar yüzilliklər keçsə də, öz xislətlərini dəyişməyəcəklər. Düşmən belə bir reallığı qəbul etmək istəmirdi ki, qanunsuz məskunlaşdıqlarına görə günlərin birində hökmən Azərbaycan torpaqlarını tərk etməli olacaqlar.

Xaliq Dünyamalıyev məcburi köçkün düşdükləri dövrdə heç vaxt ümidlərini itirmədiklərini, ən ağır anlarda da, xoş günlərdə də ürəklərinin Laçınla döyündüyünü qeyd etdi: "Biz 30 il Laçınımızdan ayrı düşdük, amma bir gün də Laçınsız durmadıq, qəlbimizdə həmişə onu yaşatdıq. Laçına dönmək ümidimizi heç vaxt itirmədik. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət elə idi ki, gec-tez biz Laçına qayıdacağımızı bilirdik. Həmin siyasəti davam etdirən Cənab Ali Baş Komandanımız da qətiyyətlə çox böyük qüvvələrlə mübarizə apara-apara bizi istəyimizə çatdırdı. Şükürlər olsun bu günə. Azərbaycan torpaqları işğaldan azaddır, Azərbaycan bütövdür. Bütün laçınlılar adından bir daha cənab Ali Baş Komandana dərin təşəkkürümü bildirirəm".

### "Öz yurdumuza əbədi dönüş edərək qurub yaradacağıq"

Sevinc hisslərini bizimlə bölüşən Laçın sakini Xuraman Cəfərova söyləyir ki, bu xoş xəbərdən nə gözyaşım quruyur, nə təbəssümüm üzümdən-gözümdən çəkilir: "Sevincimi kiminləsə bölüşmək istəyirdim, nə yaxşı ki siz gəldiniz. Tarixi Zəfərimizi qürur, iftixar hissi ilə qeyd etdiyimiz bu günləri bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirik. Şükürlər olsun ki, illərdir gözlədiyimiz günü yaşamaq bizə qismət oldu. Buna görə də sevincimizin hədd-hüdudu yoxdur".

İki yaşında Laçını tərk edən Xələf Xələfov isə tarixi ədalətin bərpa olunduğunu vurğuladı: "Laçın adı mərdlik, yenilməzlik, cəsarət rəmzidir. 26 avqust tarixi azadlıq, bütövlük, birlik rəmzi kimi yaddaşlara həkk olundu. Bu şanlı tarixi bizlərə yaşadan şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzu edirəm. Prezident İlham Əliyevə öz adımdan, ailəmizin adından Laçın sakini kimi dərin minnətdarlığımı bildirirəm. İki yaşım olarkən tərk etdiyim doğma Laçınımıza, doğulub, ancaq boya-başa çatmadığım evimizə dönəcəyim anı səbirsizliklə gözləyirəm. Əminəm ki, o torpaqlarda həyat yenidən öz axarına qayıdacaq. Biz laçınlılar yaşından, peşəsindən asılı olmayaraq, öz yurdumuza əbədi dönüş edəcək və qurub yaradacağıq".

### Doğma yurda doğru

Bu kimi sevincli, qürurlu anların fonunda dövlətimizin mövqeyinin dəyişməzliyini, hər bir məqsədə nail olmaq üçün siyasi iradə göstərildiyinin şahidi oluruq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad edilmiş ərazilərə səfərləri ənənə halını alıb. Xalqımıza inam bəxş edən bu səfərlər zamanı bir-birindən mühüm infrastruktur obyektlərinin açılışları edilir, yenilərinin təməlləri qoyulur. Hələ qarşıda bu yerlərdə neçə-neçə açılışlara, təməlqoymalara, bir-birindən mötəbər, nüfuzlu tədbirlərə şahidlik edəcəyik.

İndi laçınlılar doğma yurda qayıdış günlərini səbirsizliklə gözləyirlər. Tezliklə işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur yenidən qurulacaq və uzun müddətdir yurd həsrəti ilə yaşayan insanlar öz evlərinə qayıdacaqlar.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# Bayram coşqusu



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2022-ci il avqustun 26-da bütün Azərbaycan xalqını sevindirdi: "Bu gün, avqustun 26-da biz - azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

AZƏRTAC xəbər verir ki, Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi xəbəri laçınlılarda böyük ruh yüksəkliyi, tükənməz sevinc hissi yaradıb. Ağcabədi rayonunun Taxtakörpü ərazisində müvəqqəti məskunlaşmış laçınlılar dəstə-dəstə ərazidəki Heydər Əliyev adına Parka axışıblar. Laçınlı incəsənət ustalarının çıxışları isə bu tədbiri əsl bayrama çevirib.




# Laçın sakini: "Çox xoşbəxtəm ki, uşaqlığımı qoyub çıxdığım həyatimizə geri dönəcəyəm"



"1986-cı ildə Laçın şəhərində anadan olmuşam. 6 yaşımda ikən digər laçınlılar kimi mən də öz yurdumu, dədə-baba torpağımı tərk etməyə məcbur edildim. Şükürlər olsun ki, 30 il sonra biz öz dədə-baba yurdumuza qovuşuruq. Buna görə şəhidlərimizə, qazilərimizə borcluyuq. Ali Baş Komandanımıza borcluyuq. Onun qətiyyəti sayəsində torpaqlarımız işğaldan azad olunub".

Bunu AZƏRTAC-a Laçın şəhər sakini Şəbnəm Uğurlu söyləyib. O, yenidən Laçına dönə biləcəyinə görə özünü xoşbəxt hesab etdiyini bildirib: "Prezidentin İsmayıllıdakı çıxışını bütün laçınlılar sevinc gözyaşı ilə dinlədilər. Çünki bizim xəyallarımız, arzularımız çin oldu. Mən bu gün çox xoşbəxtəm ki, öz uşaqlığımı qoyub çıxdığım həyatimizə geri dönəcəyəm. Mən bu gün xoşbəxtəm ki, mənim Laçınsız bir gün belə yaşaya bilməyən atamın ruhu şaddır. Laçınlılar bir nəfər kimi doğma torpaqlarına qayıdacaqlar, yenidən quracaq, yenidən yaradacağıq. Lazım olsa, çadırda da yaşayacağıq, yetər ki, Vətənimizdə olaq".

# Nicat HƏSƏNOV: "Laçın həsrətinin bitməsinin sevincini yaşayırıq"



"Uzun illər işğal altında qalan torpaqlarımız Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində azad edildi. Bu gün biz laçınlılar Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərini nəzarətə götürməsi xəbərinin, Laçın həsrətinin bitməsinin sevincini yaşayırıq".

Bu fikirləri AZƏRTAC-a Laçın rayon ziyalısı Nicat Həsənov söyləyib.

Laçın şəhərinin Azərbaycan Ordusunun nəzarətinə keçməsini tarixi hadisə kimi qiymətləndirən N.Həsənov deyib: "Laçın Azərbaycanın ən böyük strateji əhəmiyyətə malik rayonlarındandır. Ali Baş Komandanın həm müharibə meydanında, həm də diplomatik müstəvidə göstərdiyi qətiyyət və qazanılmış uğurlar həmin ərazilərin qeyd-şərtsiz Ermənistanın işğalından azad edilməsini təmin etdi. Prezident İlham Əliyevin rəsmi tviter səhifəsində etdiyi paylaşım hər bir laçınlıya böyük sevinc, qürur yaşatdı. Bu sevinci, bu qüruru bizə bəxş etdiyinə görə Prezidentimizə minnətdarlığımı bildirir, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə sağlamlıq diləyirəm".

# Zabux kənd sakini: "Həkəri çayından farel balığı tutub yeməyim ən gözəl xatirələrimdən biridir"



"Mən bu gözəl gün - Laçına, Zabux kəndinə qayıdış münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm. Orada çox gözəl xatirələrim var. Amma ən gözəl xatirələrim gənclik vaxtlarımda, uşaqlıq illərimdə olub. Bu xatirələrdən biri də Həkəri çayından farel balığı tutub yeməyimdir. Laçından çıxdıqdan sonra, ötən 30 ilə yaxın dövr ərzində, demək olar ki, dünyanın hər yerində olmuşam, amma heç bir yerdə həmin balığın dadının, oraların suyunun, havasının şahidi olmamışam".

Bu sözləri AZƏRTAC-a Zabux kənd sakini Mübariz Həsənov söyləyib.

Otuz ildir Laçının həsrəti ilə yaşadığını qeyd edən kənd sakini deyib: "Laçını tərk edəndən sonra yaşadığımız həyat çox çətin oldu. Amma dövlətimiz qısa zamanda bizim üçün hər bir şəraiti yaratdı. Əminəm ki, Laçına qayıtdıqdan sonra da sakinlər üçün hər bir şərait yaradılacaq. Prezident İlham Əliyev deyəndə ki, Ordumuz artıq Laçına daxil olub, mən onda həqiqətən çox sevindim.

Allahdan Prezidentimizə cansağlığı arzulayıram, qazilərimizə isə şəfa diləyirəm. Ordumuza da təşəkkür edirəm. Arzum budur, bütün Qarabağ camaatı kütləvi şəkildə öz torpaqlarına qayıtsın, haqqın rəhmətinə qovuşmuş əzizlərinin məzarlarını ziyarət etsin, doğma elində, obasında ruh yüksəkliyi ilə daimi yaşasın".

# Sus kənd sakini: "Biz öz kəndimizə qayıdaraq bütün ömrümüz boyu orada yaşamaq istəyirik"



"Bu gün çox gözəl bir xəbər aldıq. Belə ki, Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçdi. Belə önəmli və tarixi xəbəri də xalqımıza dövlətimizin başçısı çatdırdı. Sus kənd sakini olaraq mənim üçün bundan gözəl xəbər ola bilməzdi".

Bu sözləri AZƏRTAC-a Sus kəndinin sakini Lazım Hüseynov söyləyib.

O, qeyd edib: "Biz doğma yurdumuza qayıdıb oranı yenidən canlandıracağıq. Həmçinin özümüzə yenidən gün-güzəran quracağıq. Dədə-baba torpaqlarımıza qayıdaraq bütün ömrümüz boyu yenidən orada yaşamaq istəyirik. Dövlətimizin başçısına təşəkkür edirik ki, bizləri doğulduğumuz yerlərə qaytarır".

L.Hüseynov həmçinin bildirib ki, hər bir insan üçün böyüyüb boya-başa çatdığı yerlərə qayıtmaq xoşbəxtlikdir. Bu anları bizə yaşadan ordumuza, hər zaman yanımızda olan Prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan və Qazaxıstan neftçilərinin qarşısında geniş əməkdaşlıq imkanları açılır



**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanan sənədlər sırasında SOCAR-la həmin ölkənin "QazaqGaz" şirkəti arasında Anlaşma Memorandumunun özünəməxsus yeri var. Bu, iki ölkənin neft-qaz sektorlarının inkişafında əməkdaşlığın yeni bir mərhələsinin başlandığını təsdiqləyir.**

Azərbaycan və Qazaxıstan torpaqlarının təki, həmçinin Xəzərin ölkələrimizə məxsus sektorları zəngin karbohidrogen ehtiyatlarına malikdir. Bu da iki ölkə arasında neft-qaz sənayesi işçilərinin dostluq və əməkdaşlığına, bu sahədə fəaliyyət göstərən şirkətlərin tərəfdaşlığına geniş imkan verərək onları gündəmə gətirir.

Yaxın tarixə nəzər salaq. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında möhtəşəm layihə - Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri qarşısında "yaşıl işıq" yandıran vacib bir saziş imzalandı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycanın, Gürcüstanın və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün olan bu imzalanma "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

BTC əsas ixrac neft kəmərinin tarixində həlledici rol oynayan həmin mühüm sənədi Ulu Öndərlə yanaşı, Gürcüstan, Türkiyə, ABŞ və Qazaxıstan prezidentləri imzaladılar.

2005-ci il mayın 25-də tikintisi artıq başa çatmış Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. Qazaxıstan yenə bizimlə idi. Bu münasibətlə keçirilən təntənəli tədbirlərdə Prezident İlham Əliyevlə yanaşı, Gürcüstanın, Türkiyənin və Qazaxıstanın ovaxtkı dövlət başçıları da iştirak etdilər.

Təsadüfi deyil ki, bu gün regionun neft ixracı arteriyası rolunu yerinə yetirən BTC-yə məhz Qazaxıstan nefti də vurulur. Buraya bir nüansı da əlavə edək. Qazaxıstanın məşhur "Kaşaqan" yatağının işlənməsində konsorsium təşkil edən şirkətlərin bir neçəsi həmçinin BTC-nin səhmdarıdır və onlar da Qazaxıstan neftinin bu kəmər vasitəsilə nəqli ideyası yaranan vaxtdan həmin fikrə tərəfdar çıxmış və "KazMunayGaz"ı dəstəkləmişlər.

Bir neçə kəlmə də Qazaxıstanın "KMG Drilling and Services" şirkətinə məxsus "Sətti" qurğusu haqqında. 2019-cu ilin yanvar ayında SOCAR və "KazMunayGaz" arasında imzalanmış memoranduma, eləcə də həmin ilin fevralında "Kaspian Drillinq Kompani Limited" (CDC) və "KMG Drilling and Services" arasında bağlanmış müqaviləyə əsasən, bu qurğu CDC-nin etibarlı idarəetməsinə verildi.

Qazma qurğularının tikintisi və təkmilləşdirilməsi üzrə böyük təcrübəyə malik CDC "Sətti"nin modernləşdirilməsini də uğurla həyata keçirdi. Təkmilləşdirilmə qurğunun texniki və istehsalat qabiliyyətini artırdı, onun 6 min metrdən çox dərinliyi olan kəşfiyyat quyularını təhlükəsiz və səmərəli qazmasına imkan yaratdı. Qurğunun modifikasiyasının sona çatması münasibəti ilə keçirilən tədbirdə Qazaxıstandan gələn nümayəndə heyəti də iştirak etdi.

2021-ci il avqustun 9-da CDC-nin müasir dəniz və logistika bazasında "Sətti" özüqalxan qazma qurğusunun Xəzər dənizinin Azərbaycan sektorunda qazma işlərini həyata keçirmək üçün dənizə yola salınması ilə əlaqədar da təntənəli mərasim keçirildi.

"Sətti" həmin vaxtdan Abşeron yarımadasının dayazsulu hissəsində qazma apardı və burada üzərinə düşən işi tamamladı. Gələcəkdə bu qurğunun Xəzər dənizi akvatoriyasında digər əməliyyatlarda da iştirak edəcəyi nəzərdə tutulub.

Azərbaycanın və Qazaxıstanın neft-qaz sahəsindəki əməkdaşlığına aid belə misalların sayını artırmaq da olar. İndi isə bu əməkdaşlıq yeni mərhələyə qədəm qoyur. Bu il avqustun 24-də SOCAR-ın prezidenti Rövşən Nəcəf "QazaqGaz" Dövlət Şirkəti Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Sanzhar Jarkeşovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Söhbət zamanı SOCAR ilə "QazaqGaz" arasında əməkdaşlığın inkişaf perspektivlərinə, nəzərdə tutulan layihələrin icrasını həyata keçirmək məqsədilə işçi qruplarının yaradılmasına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşün yekununda SOCAR və "QazaqGaz" arasında Anlaşma Memorandumu imzalanıb. Sənəd Qazaxıstanda karbohidrogen yataqlarının kəşfiyyatı və işlənməsini, qaz-kimya sahəsinin inkişafını, qazın nəqlinin modernləşdirilməsini, bu sektorda innovativ texnologiyaların tətbiqini və digər önəmli istiqamətlər üzrə əməkdaşlıq imkanlarının araşdırılmasını nəzərdə tutur.

Göründüyü kimi, imzalanan sənəd əməkdaşlıq və tərəfdaşlıq üçün geniş üfüqlər açır. Belə ki, dost ölkədə karbohidrogenlərin kəşfiyyatından başlayaraq hasilatını, emalını, nəqlini və digər sahələri əhatə etməklə genişmiqyaslı işlər aparmaq nəzərdə tutulur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Özbəkistan şirkəti ilə maşınqayırma sahəsində əməkdaşlığın inkişafı müzakirə olunub

**İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Özbəkistanın "Uzavtosanoat" SC-nin İdarə Heyətinin sədri Şavkat Umurzakov və "General Motors International" şirkətinin vitse prezidenti Coni Saldana ilə görüşüb.**

Görüşdə iqtisadiyyat nazirinin müavini Azərbaycan-Özbəkistan tərəfdaşlığının və iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyi barədə məlumat verib. Qeyd edilib ki, ölkələrimiz arasında ticarət dövriyyəsi artır, qarşılıqlı investisiya qoyuluşları sahəsində əməkdaşlıq genişlənir. Bununla belə tərəfdaşlığın gücləndirilməsi üçün böyük imkanlar var.

Özbəkistan şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən biznes layihələrində fəal iştiraka dəvət olunub.

"Uzavtosanoat" SC-nin İdarə Heyətinin sədri Şavkat Umurzakov ölkəsində Azərbaycanla əməkdaşlığın inkişafına böyük önəm verildiyini vurğulayıb, tərəfdaşlığın inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər maşınqayırma sahəsində əməkdaşlığın inkişafı, o cümlədən digər ölkələrin bazarlarına birgə ixracın genişləndirilməsi barədə müzakirə aparıblar.

Məlumat üçün bildirək ki, "Uzavtosanoat" SC şirkəti minik və yük avtomobillərinin, avtobusların və avtomobil komponentlərinin istehsalı və satışı sahəsində fəaliyyət göstərir. Şirkətin əsas istehsal çeşidinə "Chevrolet", "Ravon" brendinə məxsus minik avtomobilləri və "ISUZU" markalı avtobuslar daxildir.

## 462,5 min şəxsə e-qaydada fərdi hesab açılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidməti vasitəsilə bu il 97,9 min şəxsə e-qaydada sosial sığorta nömrəsi (SSN) və fərdi hesab açılıb.**




2020-ci ilin yanvar ayında istifadəyə verilən bu e-xidmət sığortaolunanların proaktiv qaydada e-sistemdə qeydiyyatına xidmət edir. İlk dəfə işə başlayan şəxslə bağlanan əmək müqaviləsinə dair bildiriş e-sistemdə qeydə alındığı andan işçiyə avtomatik SSN də açılır.

Nəticədə işçi fərdi uçot sistemində fərdi şəxsi hesaba və sosial sığorta sistemində iştirak etmək, fərdi hesabında pensiya kapitalı toplamaq imkanına malik olur.

Ümumilikdə ötən dövrdə 462,5 min şəxsə e-qaydada fərdi hesab açılıb.

## Ölkəyə 7 min 200-dən çox hibrid və elektromobil gətirilib

**Yanvar-iyul aylarında ölkəyə elektriklə işləyən 7256 nəqliyyat vasitəsi gətirilib.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu nəqliyyat vasitələrindən 7070-i daxiliyanma mühərriki ilə yanaşı, elektrik mühərriki ilə, 186-sı isə yalnız elektrik mühərriki ilə hərəkətə gətirilən nəqliyyat vasitəsidir.

## Ahıl şəxslərin iştirakı ilə "Gəzinti futbolu" layihəsinə start verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi, UEFA və AFFA-nın birgə təşkilatçılığı ilə ahıl şəxslər üçün "Gəzinti futbolu" (Walking football) adlı sosial layihəyə start verilib.**



Layihəyə Sosial Xidmətlər Agentliyinin ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri cəlb olunub. Məqsəd yaşlı insanları aktiv və faydalı yaşlanmaya, cəmiyyətdə fəal rol oynamağa həvəsləndirmək, eləcə də onların asudə vaxtlarını səmərəli təşkil etmək, ahıllara daima diqqətdə olduqlarını hiss etdirməkdir. Layihənin açılışında agentliyin, AFFA-nın nümayəndələri və b. iştirak ediblər.

AFFA tərəfindən təşkil olunmuş məşqçi heyəti tərəfindən həftədə iki dəfə olmaqla ahıl şəxslər üçün gəzmək üzərindən futbol dərsləri və məşqləri həyata keçirilir. Layihə iştirakçıları AFFA tərəfindən idman ləvazimatları ilə də təmin olunub.

Oktyabr ayında isə ahıllarla veteran futbolçuların yoldaşlıq oyununun təşkil olunması nəzərdə tutulub.

## Azərbaycan neftinin bir bareli 101,58 dollara satılır

**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,68 dollar azalaraq 101,58 dollar olub.**

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti martın 9-da (135,99) qeydə alınmışdı.

## Qeyri neft-qaz sektorunda çalışanların sayı daha çoxdur

**Cari il avqustun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 342,1 min nəfər olub. Onlardan 5 milyon 34,3 min nəfərini məşğul əhali təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatında həmçinin bildirilir ki, iyulun 1-i vəziyyətinə mzdla çalışan işçilərin sayı 1 milyon 720 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 901,2 min, qeyri-dövlət sektorunda isə 818,8 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 30,7 min, qeyri neft-qaz sektorunda isə 1 milyon 689,3 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,6 faizi tikintidə, 7,3 faizi emal sənayesində, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 19,2 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyat sahələrində çalışıb.

Cari ilin ikinci rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 4585 nəfər təşkil edib. Onlardan 55 faizi tikintidə, 9,8 faizi mədənçıxarma sənayesində, 6,8 faizi emal sənayesində, 6,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 2,7 faizi təhsil və 15,6 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub.

Bu ilin yanvar-iyun aylarında bir işçiyə düşən aylıq işlənmiş iş saatlarının miqdarı 145 saat təşkil edib.

*"Azərbaycan"*

## Beynəlxalq elektron ticarətə başlayan gənclərlə görüş keçirilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalında "Amazon" və "Ebay" platformalarında elektron ticarətə başlayan bir qrup gənclə görüş keçirilib.**

Görüşdə elektron ticarət sahəsində mövcud vəziyyət, yeni ticarətçilərin əsas diqqət etməli olduğu məqamlar, trendlərə adaptasiya, satış bazarlarının spesifikliyinin təhlilinə dair mövzularda geniş müzakirə aparılıb. Beynəlxalq platformalarda satışlara başlayan gənclərə təcrübədən irəli gələn tövsiyələr verilib. Həmçinin platformalardan istifadəyə dair praktik nümunələr nəzərdən keçirilib. "Azexport" portalının rəhbəri Ayxan Qədəşov oxşar görüşlərin bölgələrdə də davam etdirilməsinin nəzərdə tutulduğunu bildirib.

## İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 40 mindən artıq şəxs ipoteka krediti alıb

**İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

İKZF-dən AZƏRTAC-a bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 40 min 37 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 2 milyard 249 milyon 626 min 544 manatdır.

◆ Demoqrafiya

## Miqrasiyanın saldosu müsbətdir



**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il iyul ayının 1-i vəziyyətinə ölkə əhalisinin sayı 10 milyon 185 min 784 nəfər olub. Birinci yarım ildə əhalinin sayı 29 min 418 nəfər və ya 0,3 faiz artıb.**

Əhalinin ümumi sayının 52,9 faizi şəhərlərdə yaşayır, qalanı isə kənd sakinləridir. Kişi və qadınların xüsusi çəkisi dəyişməyərək qalıb.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən yanvar-iyun aylarında ölkədə 61 min 234 körpənin doğulduğu qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 11,3-dən 12,3-ə qədər artıb. Doğulanlar arasında oğlanların xüsusi çəkisi 52,7, qızların xüsusi çəkisi 47,3 faiz təşkil edib. Sözügedən müddətdə əkiz doğulanların sayı 1726, üçəmlərin sayı isə 87 olub.

İlin birinci yarısında ölkədə 32 min 589 ölüm halı da qeydə alınıb. Ötən ilin müvafiq dövrünə nisbətən əhalinin hər 1000 nəfərinə ölümün səviyyəsi azalaraq 7,5-dən 6,5-ə düşüb.

Yanvar-iyun ayları ərzində 28 min 785 nikah bağlanıb və 7 min 531 boşanma halı baş verib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hər 1000 nəfərə hesabı ilə nikahların sayı 4,7-dən 5,8-ə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,6-dan 1,5-ə düşüb.

Miqrasiya saldomuz da müsbətdir. Belə ki, Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları ilin birinci yarısında daimi yaşamaq üçün ölkəmizə 1215 nəfərin gəldiyini qeydə alıblar. Azərbaycandan digər ölkələrə köçənlərin sayı isə cəmi 442 nəfər olub. Beləliklə, ölkə üzrə 773 nəfərlik müsbət miqrasiya saldosu yaranıb.

*"Azərbaycan"*




# Mürəbbə - 2,6 milyon illik qida

**Çayın "dostu" olan, birlikdə süfrələrə təqdim edilən və ya səhər yeməyində çörək üzərinə yaxılaraq yeyilən mürəbbələr çox insanın xoşladığı qidadır. Mürəbbənin tarixi olduqca qədimlərə gedib çıxır. Belə ki, onun hazırlanmasına təxminən 2,6 milyon il əvvəl Daş dövründə qidaların müəyyən müddət saxlanılması yollarının araşdırılması zamanı başlanılıb.**



Paleolit dövründə insanlar əldə etdikləri qidaları uzun müddət saxlaya bilməyiblər. Belə ki, artıq qalan qidalar bir müddət sonra istifadəsiz hala düşürdülər. Buna görə də insanlar qida qıtlığı ilə üzləşdikləri zaman ehtiyat üçün onları saxlamağın yollarını kəşf ediblər. İlk üsullardan biri bal və ya şəkərdən istifadə edərək məhsulları konservləşdirmə olub.

Qədim yunanlar topladıqları heyvaları saxlamaq üçün baldan istifadə ediblər. Həmçinin bal və şəkərdən hazırlanan şərbətlər də ehtiyat səbətində xüsusi yer tutub. Məhz bu üsulla konservasiyanın reallaşdırılması isə balın rütubətin qarşısını alması ilə bağlı olub. Bal içindəki hər hansı qidanın istifadə müddətini uzadırmış.

Mürəbbənin ilk qeydə alınmış yazılı reseptinə "Yemək sənəti" (De Re Coquinaria) adlı kitabda rast gəlinib. Yeri gəlmişkən, bu, məlum olan ən qədim kulinariya kitablarındandır, onda 500-dən çox yemək resepti mövcuddur. Kitabda mürəbbənin hazırlanma qaydasının Markus Qavius Apikiusla əlaqələndirildiyi və Romaya aid olduğu qeyd edilir. İlkin hazırlanma qaydasına əsasən, meyvələr bal ilə qızardılaraq saxlanılıb. Əldə olunan qarışımın isə soyudularaq yeyilməsi tövsiyə edilib.

### *Janna Dark və Kral XIV Lüdovikin sevimli qidası*

Sonrakı dövrdə mürəbbənin məşhurlaşmasına şəkər səbəb olub. XI əsrdə Səlib yürüşləri zamanı Yaxın Şərqdən Qərbi Avropaya gətirilən şəkər mürəbbə hazırlamağı xeyli asanlaşdırıb.

Avropada yayılmağa başlayandan sonra mürəbbə xüsusən döyüşçülərin və dənizçilərin məşhur qidası olub. Hətta deyilənlərə görə, Janna Dark döyüşdən əvvəl güc toplamaq üçün heyva mürəbbəsi yeyirmiş. Dənizçilər isə uzun səfərlərə gedən zaman yolboyu qidalanmaq üçün mürəbbə tədarükü görürmüşlər.

Orta əsrlərdə şəkər baha olduğundan mürəbbəyə əsasən imtiyazlı təbəqədən olanların evlərində rast gəlinirmiş. Qeydlərə görə, Fransa Kralı XIV Lüdovik mürəbbəni o qədər sevirmiş ki, hər yeməkdən sonra onun xüsusi bəzəkli gümüş qablarda və qaşıqlarla süfrəyə gətirilməsini tələb edirmiş. XIV Lüdovikin mürəbbələri Versal sarayının bağlarındakı meyvələrdən, o cümlədən ananas kimi tropik meyvələrdən hazırlanırmış.

# Konservlərin kəşfi

**Mürəbbə kimi bir çox qidaların pasterizasiyası (xarab olan fermentləri təsirsiz hala gətirmək üçün tətbiq edilən proses) kəşf edilməyənə qədər geniş miqyasda istehsalı mümkün olmayıb.**




Pasterizasiyanın icadı isə Napoleon Bonapartın səyi nəticəsində mümkün olub. O, 1785-ci ildə döyüşən əsgərləri üçün böyük miqdarda yemək tədarükünü görə bilən, yəni indiki konservləşdirilmiş qidaları hazırlaya bilən şəxsə mükafat verəcəyini bildirib.

İxtiraçı Nikolas Appert 1810-cu ildə Bonapartın çağırışına cavab olaraq, bu kəşfin üzərində işləyərək mükafatın qalibi olub. Onun üsulu qidanın şüşə qaba və ya bankaya tökülərək yüksək temperaturda qızdırılmasından və müəyyən müddət istiliyi saxlamasından ibarət idi. Belə formada hazırlanan qabların ağzı olduqca kip bağlanıb, istifadə olunan müddətə qədər açılmayıb. Bu məhsulların xarab olmaması isə belə izah edilir: istilik qidanın tərkibindəki mikroorqanizmləri öldürür, kip qablaşdırılma digər mikroorqanizmlərin bankaya daxil olmasının qarşısını alır.

N.Appertin bu kəşfi qidanın uzun müddət təhlükəsiz halda saxlanılmasını mümkün edib. Bununla da o, "konservləşdirmənin atası" kimi tanınır və onun üsulları bütün növ qidaları müvafiq qablarda təhlükəsiz şəkildə uzun müddət saxlamağa imkan verib. Sonrakı dövrlərdə müxtəlif materiallardan olan qabların, onların qapaqlarının təkmilləşdirilərək hazırlanması məhsulların daha çox müddətə saxlanılmasında əhəmiyyətli rol oynayıb. Bu sırada xüsusilə XIX əsrdə konservləşdirilmiş qidaları misal gətirmək olar. 1873-cü ildə isə ABŞ-da konservləşdirilmiş məhsulların ixracı Kempbell, Heinz və Borden şirkətlərinin istehsalları hesabına yüksəlib.

# Balıq kürüsü süfrələrdə



**Balıq kürüsü uzun illər boyu bahalı, insanların süfrələrindən əskik olmayan bir qida olub. Kürü əsasən dişi nərə balığının kürüsündən hazırlanır. Nərə balıqlarına isə adətən Xəzər və Qara dənizdə, Sakit Okeanın Şimal-Qərb və Şimali Atlantik okeanının bəzi hissələrində rast gəlinir. Amerika və Avropanın böyük göllərində və çaylarında da yayılıb. Nərə duzlu su hövzələrində yaşayan balıq olmasına baxmayaraq, kürüsünü şirin sularda tökür.**

Kürü haqqında ilk məlumatlar yunan alimi Aristotelə aiddir. Eramızdan əvvəl IV əsrdə Aristotel qeydlərində bu ləzzətli qidanı çiçəklər arasında ziyafətlərdə təqdim olunan nərə balığının yumurtaları kimi təsvir edib.

Orta əsrlərdəki ingilis kralları nərə balıqlarını öz istehlakları üçün qoruyub saxlamağa çalışıblar, hətta onları "kral balığı" kimi adlandıraraq yalnız özlərinə məxsus olduğunu sübut etmək istəyiblər. Ancaq ilk dəfə balıq kürüsünü hazırlayan və dadan farslar olublar. Onlar balıqların tökdüyü yumurtaları çaydan toplayıblar, daha sonra onun duzlanması ənənəsini çinlilərdən götürərək tətbiq ediblər. Çində sazan kürüsü məhz bu şəkildə hazırlanırmış.

Amerikada isə balıq kürüsü bir zamanlar hər kəs tərəfindən əldə edilə bilən qida olub. Kürü hər yerdə satılıb və olduqca münasib qiymətə təqdim olunub. Burada kürü sənayesi Amerikaya köçmüş alman Henri Şaxt ilə yaranıb. O, ilk dəfə 1873-cü ildə nərə balıqlarının bol olduğu Nyu Cersi ştatında yerləşən Delaver çayında balıqları tutaraq kürü biznesinə başlayıb. H.Şaxt daha sonra Amerika kürüsünü Avropaya bir funt sterlinqə ixrac edərək dünyada ilk kürü istehsalı şirkətinin əsasını qoyub. XIX əsrə qədər ABŞ dünyadakı kürü istehsalının 90 faizini qarşılayıb.

Əslində, həmin zamanlarda ABŞ-ın kürü istehsalında dominantlıq etməsinə Xəzər dənizində nərə balıqlarının sayının azalması və əsas kürü istehsal edən ölkələrdə - Rusiya və İranda siyasi qarışıqlıqlar səbəb olub. XX əsrdə isə Amerikada yerləşən su hövzələrində nərəkimilərin nəsli kəsilməkdə olduğu üçün ABŞ-ın kürü istehsalı üzərində hökmranlığı əhəmiyyətli dərəcədə azalmağa başlayıb.

# Qiymətli kürülər

**Bütün balıqlar çoxalmaq üçün kürü tökürlər. Lakin hər balığın kürüsü yeməli hesab edilmir. Daha çox tələbat olan kürülər nərəkimilər dəstəsinə mənsub olan beluqa, osetrin və sevruqa sortlarından əldə edilir.**

Hazırda qızılbalıq, tuna balığı və sairə balıq növlərindən hazırlanan kürülər də var. Kürünün qara, qırmızı, ağ və qızılı növləri mövcuddur. Qara kürü nərəkimilərdən, qırmızı kürü qızılbalıqkimilərdən, ağ kürü isə sazan, alabalıq, durnabalığı, treska, siyənək və digər balıq növlərindən əldə olunur. Ən qiymətli kürü növü isə qızılı kürüdür ki, o da nərəkimilərin albinos növlərindən əldə edilir.

Təbii balıq kürüsündən əlavə, ona oxşar süni yolla əldə olunan kürü növlərinə də rast gəlinir. Bu məqsədlə jelatin, yumurta zülalı, dəniz yosunları, boya maddələri, bitki yağları və aromatizatorlardan istifadə edilir. Təbii kürüdən fərqli olaraq, süni kürü kəskin balıq qoxusuna malikdir və üzərinə qaynar su əlavə etdikdə rəngin suya qarışması, kürü dənələrinin əriməsi prosesi müşahidə olunur.



Kürü insan sağlamlığı üçün böyük əhəmiyyət kəsb edən qidalı maddələr, o cümlədən asan mənimsənilən zülallar, yağlar, vitaminlər, fermentlər, minerallar və digər bioloji aktiv maddələrlə zəngindir.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# Yeni əməliyyat sistemi

**"Huawei" "HarmonyOS 3.0" əməliyyat sistemini təqdim edib. Böyük miqyasa sahib olmayan sistem özündə bəzi vizual dəyişikliklər ilə artıq mövcud olan funksiyaların yaxşılaşdırılmış versiyalarını birləşdirir. Sözügedən əməliyyat sistemində mövcud olan "Super Device" adlı funksiya çoxlu sayda intellektual cihazın dəstəyini əldə edib və beləliklə, daha çox smartfon və planşet modelində aktiv olacaq.**




Onun vasitəsilə cihazları sürətli şəkildə bir-birinə qoşmaq mümkündür. Bu halda cihazlar genişmiqyaslı vahid ekosistemə qoşulurlar. "HarmonyOS" ilə çalışan smart televizorlarda pult vasitəsilə televizorlardakı səsgücləndiricilər, xarici səsgücləndiricilər və ya naqilsiz qulaqlıqlar arasında sürətli keçidin reallaşdırılması imkanı da istifadəyə verilib. Onun vasitəsilə çalışan smart saatlar isə müxtəlif idman təchizatı ilə sinxronlaşdırıla bilər. Bundan əlavə, avtomobillərdəki ekranlara smartfondakı bütün işlək ekranları köçürtmək mümkün olacaq. Bu da öz növbəsində avtomobil ekranında istənilən lazımi tətbiqin istifadəsinə imkan verir. Artıq cihazda yaradılan qovluqların ölçülərini və hətta formalarını da dəyişmək mümkündür.

"HarmonyOS 3.0"da olan digər yenilik isə tətbiqlərin ikon rəngləri, kateqoriya və ya funksiyalar üzrə smart çeşidlənməsidir. Həmçinin istifadəçilər əməliyyat sisteminin daxilində özlərinin 3D avatarlarını yarada və onları insanlarla ünsiyyətdə istifadə edə bilərlər.

Tərtibatçılar "HarmonyOS 3.0"ın optimizasiyasına xüsusi diqqət ayırıblar. Belə ki, yeni əməliyyat sistemi cihazın texniki tərəfini çox yükləmir və daha axıcı çalışır. "Android 12"də olduğu kimi,"HarmonyOS 3.0" da öz ayarlarında konfidensiallıq mərkəzini əldə edib. Sözügedən bölmə əlavə təhlükəsizliyin təmin olunması üçün nəzərdə tutulub. İstifadəçi bu bölmə vasitəsilə hansı tətbiqlərin cihazın kamerasından və ya mikrofonundan istifadə etdiyini müəyyənləşdirə biləcək.

"HarmonyOS 3.0" ilk beta versiyası "Huawei P50" və "Mate 40" flaqman smartfon seriyalarında artıq aktivdir. Yeni əməliyyat sistemini 2021-ci ildə satışa çıxarılmış "Huawei MatePad Pro 12.6" planşetinin istifadəçiləri də nəzərdən keçirə bilərlər. Əməliyyat sisteminin yeni versiyasının beta testi hələ ki, yalnız Çində aktivdir.

# "TikTok"un yeni funksiyası




"TikTok" platforması gənclər arasında xüsusilə məşhurdur. Lakin sözügedən platformada bəzən elə trendlər ortaya çıxır ki, onların digərləri tərəfindən təkrarlanması bəzi hallarda bədbəxt hadisələrə gətirib çıxarır. Buna görə də "TikTok" tərtibatçıları azyaşlı istifadəçilərin belə kontentlərə keçidlərini məhdudlaşdırmaq qərarına gəliblər. Bu problemi aradan qaldırmaq üçün platformaya müəyyən səviyyələr əlavə ediləcək. Sosial şəbəkənin rəsmi bloqunda qeyd edilmiş məlumata əsasən, yaxın günlərdə platformada paylaşılan qorxu və gərginlik yaradan, habelə yetkin məzmunlu kontentlər 18 yaşdan aşağı istifadəçilər üçün bloklanacaq.

Yaxın həftələrdə "TikTok" bütün istifadəçilər üçün yeni funksiyanı istifadəyə verəcək. Bu funksiyadan istifadə edərək istifadəçilər əsas səhifədə görmək istəmədikləri müəyyən mövzulu kontentlərin adlarındakı və ya "hashtag"lardakı sözləri qeyd edə biləcəklər. Bu da öz növbəsində konkret kontentin izlənməsindən imtinanı reallaşdıracaq.

# "NVIDIA"nın neyron şəbəkəsi

**"NVIDIA" şirkəti Amerikadakı Stenford Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində "EG3D" adlı yeni neyron şəbəkəsi yaradıb. Sözügedən neyron şəbəkəsi ikiölçülü adi təsvirlər əsasında realistik üçölçülü təsvirlər yarada bilir. Alqoritm mövcud olan digər analoqları həm sürət, həm də dəqiqlik baxımından geridə qoyur və hələ üstəlik işi üçün güclü kompüter də tələb etmir.**



"EG3D" insanların və heyvanların üzlərini detallı şəkildə yarada bilir. Onun generasiya etdiyi 3D obyektlər bütün perimetr üzrə düzgün həndəsi özəlliklərə sahibdirlər. Lakin alqoritm tərəfindən yaradılan 3D obyektlərindən oyunlarda və buna bənzər digər layihələrdə hələ istifadə etmək mümkün deyil. Belə ki, alqoritmin yaratdığı obyektləri standart üsullarla redaktə etmək və ya onlara hansısa əlavələri yerləşdirmək qəliz məsələdir. Sözügedən neyron şəbəkəsini istənilən şəxs istifadə edə bilər. Bunun üçün müəyyən tələblərə uyğun videokarta sahib olmaq kifayətdir. Şirkət, habelə"EG3D"nin mənbə kodunu və ondan istifadə təlimatını təqdim edib.

# Ən nazik planşet



"Huawei" şirkəti "HarmonyOS 3.0" əməliyyat sistemi ilə yanaşı, "MatePad Pro 11" planşetini də təqdim edib. "MatePad Pro 11" OLED ekran, "Qualcomm" prosessoru və güclü audio sistemi ilə təchiz olunub. Şirkətin verdiyi məlumata görə, o, dünyanın 11 düym ölçülü ən nazik planşet modelidir. Çəkisi 449 qram və qalınlığı 5.9 millimetr olan yeni cihaz iki versiyada təqdim olunub. Onlardan biri "Snapdragon 870", digəri isə "Snapdragon 888" prosessoruna sahibdir. İki planşet modeli prosessor ilə yanaşı, daxili yaddaş həcmi, RAM yaddaşı və sürətli şarj texnologiyasının göstəricisi ilə də bir-birindən fərqlənir. Digər bütün özəlliklər isə hər iki planşetdə eynidir.

"MatePad Pro 11" planşeti 120 Hz-lik təsvir yenilənməsinə sahib 2560x1600 piksel keyfiyyətli ekranla təchiz olunub. Ekran üzərində ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. "Snapdragon 870" prosessoruna sahib olan model özündə 8 GB RAM, 128/256 GB yaddaş həcmini və 40 vatt gücündə sürətli şarj texnologiyasını birləşdirir. "Snapdragon 888" prosessoruna sahib model isə 12 GB RAM, 128/256/512 GB yaddaş həcmi və 66 vatt gücündə sürətli şarj texnologiyası ilə təchiz olunub.

Hər iki planşet modeli 13+8 MP-li ikili arxa kamera, 16 MP-li ön kamera və 8300 mAh enerji tutumlu batareya ilə təchiz olunub. Özündə 6 ədəd stereo səsgücləndiricini birləşdirən yeni cihaz "M Pencil" stilusunun dəstəyinə sahibdir.

# Unikal üçlü ulduz sistemi

**Danimarkadakı Kopenhagen Universitetinin alimləri "TESS" kosmik teleskopu ilə unikal üçlü ulduz sistemini kəşf ediblər. "TIC 470710327" adını əldə edən bu ulduz sistemi bir-birinin ətrafında dövr edən iki ulduzdan və həmin ulduzların ətrafında dövr edən yüksək kütləli üçüncü ulduzdan ibarətdir. Alimlər düşünürlər ki, bu sistemdə nə vaxtsa dördüncü ulduz da mövcud olub. Lakin müəyyən müddətdən sonra ulduzlardan biri dördüncü ulduzu udaraq öz ölçüsünü böyüdüb.**



Bu cür üçlü ulduz sistemi kainatda nadir rast gəlinən bir hal deyil. Güman olunur ki, mövcud olan bütün ulduz sistemlərinin 10 faizi məhz üçlü ulduz sistemləridir. Keçən il alimlər hətta onların birində ekzoplanet də kəşf ediblər.

"TIC 470710327" digər üçlü ulduz sistemlərindən ölçüsü və forması ilə fərqlənir. Belə ki, bu sistemdə mövcud olan ulduzlar daha böyükdürlər və bir-birinə çox yaxın məsafədə yerləşirlər. Buna görə də onların arasındakı qarşılıqlı cazibə qüvvəsi daha güclüdür.

Bu ulduz sistemində bir-birinin ətrafında dövr edən iki ulduzdan hər biri Günəşdən 12, onların ətrafında dövr edən böyük ölçülü ulduz isə16 dəfə böyükdür. Bir-birinin ətrafında dövr edən 2 mərkəzi ulduz dövretmə prosesini 24, böyük ölçülü ulduz isə 52 günə reallaşdırır. Bu dövretmə sürəti belə böyük ölçülü ulduzlar üçün çox yüksəkdir.

Hazırda alimlər bu ulduz sisteminin necə yarandığını təyin etməyə çalışırlar. Onlar əvvəl güman edirdilər ki, böyük ölçülü ulduz birinci yaranıb və daha sonra digər iki ulduzun formalaşması baş verib. Lakin bu halda böyük ölçülü ulduz digər ikisinin yaranması üçün lazım olan bütün qazı udmuş olmalı idi. Nəticədə digər iki ulduz yarana bilməzdi. Daha sonra alimlər düşünüblər ki, bəlkə də bu 3 ulduz eyni anda yaranıb və müəyyən müddətdən sonra onların arasında qarşılıqlı qravitasiya əlaqəsi yaranıb. Lakin bu fikrin də üstündən xətt çəkilib. Belə ki, bu halda yüksək kütləyə sahib olan ulduz sistemin kənarında yox, mərkəzində yer almalı idi. Daha sonra kompüter modelləşdirməsi sayəsində alimlər təyin ediblər ki, sözügedən ulduz sistemi əslində iki cüt ulduzdan ibarət olub. Birinci cüt ulduz olduğu kimi qalsa da, ikinci cüt stabil şəkildə qalmayıb, hazırda böyük ölçülü ulduzun yerləşdiyi sahədə yerləşib. Alimlərin fikirlərinə görə, təkamül prosesində ikinci cüt ulduzların biri digərini udub. Yəni bu prosesdə ulduzlardan biri digərinin bütün maddəsini əldə edib və nəticədə yerdə qalmış ulduz böyük ölçüyə sahib olub. Bu, iki ulduzun bir-birinə güclü cazibəsi nəticəsində baş verib.

# Virtual dünyanın yenilikləri

**"Sony""Playstation VR2" virtual reallıq cihazının funksiyaları və özəllikləri barədə məlumatları ictimaiyyətə təqdim edib. Məlumata görə, o, cihaza inteqrasiya edilmiş kameralar vasitəsilə ətraf mühiti skan edəcək.**



Bunun vasitəsilə istifadəçi virtual reallıq aparatını başından çıxartmadan idarəetmə aksesuarlarını tapa biləcək. Bunun üçün sadəcə olaraq cihazdakı xüsusi düyməyə klikləmək və ya idarəetmə mərkəzindəki xüsusi bölmədən istifadə edərək 3D dünyadan real dünyaya keçidi reallaşdırmaq lazımdır. İdarəetmə mərkəzində olan xüsusi bölmələr həmçinin "Playstation VR2"nin sürətli ayarlarına keçid imkanını verirlər. Buna oyun zonasının adaptasiya tənzimləmələrini misal gətirmək olar.

Daha bir vacib funksiya isə istifadəçinin oyunda olduğu zaman özünü çəkə bilməsidir. Bu, cihaza qoşulu olan "PS5 HD Camera" vasitəsilə reallaşdırılır. Bu özəllik öz növbəsində istifadəçiyə oyundakı maraqlı anları digərləri ilə bölüşmək imkanını verəcək. Oyun zonasının tənzinlənməsi prosesi həm VR cihazdakı kameralar, həm də idarəetmə aksesuarları vasitəsilə reallaşdırıla bilər. Bu halda VR cihazın kameraları otağı skan edir, "PS VR2 Sense" idarəetmə aksesuarları isə ətraf mühitin özəllikləri və oyunçunun oyun tərzi əsasında oyun zonasının sərhədlərini daha dəqiq təyin etməyə imkan verir. Beləliklə, istifadəçi oyun zonasının öncədən təyin edilmiş sərhədinə yaxınlaşdıqda bu barədə xəbərdarlıq əldə edəcək. Ətraf mühitin özəlliklərindən asılı olaraq ayarlanmanı istənilən an dəyişmək mümkündür.

İstifadəçilərə həmçinin virtual reallıq və kinematoqrafik rejimlər arasında keçid etmək imkanı da veriləcək. VR rejimdə istifadəçilər 360 dərəcəlik bucaq əhatəsi vasitəsilə virtual mühitdəki kontentlərlə qarşılıqlı əlaqədə olacaq. Kinematoqrafik rejimdə isə istifadəçilər VR ilə əlaqəli olmayan oyunlarla qarşılıqlı əlaqə yaradacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Avropada qazın qiyməti rekord həddə çatıb




## Ekspertlər qiymətin min kubmetr üçün 4 min dollardan yuxarı qalxa biləcəyini istisna etmirlər

**Avropa "Şimal axını" kəməri ilə Rusiya qazının nəqlinin tamamilə dayandırılmasından ehtiyat edir. Almaniyanın DIW İnstitutunun rəhbəri hesab edir ki, Avropada qazın qiyməti uzun illər yüksək səviyyədə qalacaq.**

Avropada Rusiyadan təbii qaz tədarükünün tamamilə dayandırılması ilə bağlı narahatlıq mavi yanacağın qiymətində yeni kəskin sıçrayışa səbəb olub. Məlumata görə, qaz fyuçerslərinin qiyməti mart ayından bəri ilk dəfə min kubmetr üçün 3500 dolları ötüb. Bu barədə ICE birjası xəbər verib.

Bundan əvvəl "Qazprom" təmir işləri ilə əlaqədar avqustun 31-dən "Şimal axını" boru kəməri ilə təbii qazın nəqlinin üç gün müddətinə dayandırıldığını bildirmişdi. Bu, Rusiya qazının Avropaya tədarükünün tamamilə dayandırılması perspektivi ilə bağlı həyəcanı artırıb.

Məlumata əsasən, ən yaxın fyuçerslərdə ticarət Avropanın ən böyük mərkəzi TTF indeksi üzrə min kubmetr üçün 3213,2 dollar (-2,3 faiz) səviyyəsində açılıb. Hazırda isə qiymətlər 6,6 faiz artaraq min kubmetr üçün 3507,7 dollar təşkil edir. Bundan bir gün əvvəl London birjasında keçirilən hərraclarda qazın min kubmetrinin qiyməti 3396 dollar olub.

Qazın qiymətinin belə sürətlə yüksəlməsinə Rusiyanın "Qazprom" şirkətinin "Şimal axını" ilə tədarükü avqustun 31-dən etibarən üç gün müddətinə dayandıracağı barədə açıqlaması səbəb olub.

Bundan əlavə, ABŞ-ın "Freeport LNG" şirkəti bildirib ki, baş vermiş qəzadan sonra təbii maye qaz terminalının fəaliyyətini noyabrın əvvəlində və ya ortalarında qismən, 2023-cü ilin martında isə tam bərpa etməyi planlaşdırır. Bundan əvvəl müəssisənin oktyabr ayında fəaliyyətini bərpa etmək, 2022-ci ilin sonunadək isə tam gücü ilə işləmək planlaşdırılırdı. "Freeport LNG" müəssisələrinin gücü ildə 15 milyon ton təbii maye qazı səviyyəsində qiymətləndirilir. Bu isə ABŞ-ın ümumi ixracının təxminən 16 faizini təşkil edir.

Qeyd edək ki, 2022-ci il martın 7-də qazın birja qiyməti tarixdə ilk dəfə olaraq 1000 kubmetr üçün təxminən 3900 dollara çatıb. "Qazprom" şirkəti bu qış Avropada qazın qiymətinin min kubmetr üçün 4000 dollardan yuxarı qalxa biləcəyini istisna etməyib.

Ekspertlər qışda qazın qiymətinin kəskin soyuq olması və anbarda ehtiyatların azalması halında qazın qiymətinin 1000 kubmetr üçün rekord həddə - 5000 dollara qalxacağını gözləyirlər.

Xatırladaq ki, iyulun 27-dən bəri "Şimal axını" qaz kəməri bir neçə qaz turbininin dayanması səbəbindən maksimum gücün 20 faizi həcmində istifadə edilib. Onlardan biri Kanadada "Siemens Energy" tərəfindən hazırlanıb və təmir üçün Monreala göndərilib. Lakin Kanadanın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar səbəbindən istehsalçı onu geri qaytarıb. Həmçinin "Qazprom" daha bir qaz turbinli mühərrikin məcburi dayandırıldığını elan edib. Beləliklə, hazırda yalnız bir turbin işlək vəziyyətdə qalır.

Bu arada Almaniya İqtisadi Tədqiqatlar İnstitutunun (DIW) rəhbəri Marsel Fratzçer təbii qazın yüksək qiymətlərinin uzunmüddətli saxlanmasına hazırlaşmağa çağırıb. "Enerji qiymətləri heç vaxt əvvəlki səviyyəyə qayıtmayacaq", - deyə o, SWR radiostansiyasına müsahibəsində bildirib. Fratzçerin sözlərinə görə, Rusiya-Ukrayna münaqişəsi səbəbindən enerji qiymətləri 5-7 il yüksək səviyyədə qalacaq, ona görə də insanlar həyat səviyyəsinin aşağı düşməsinə köklənməlidirlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

# Şəkər xəstələrinin sayı niyə artır?

## Azərbaycanda 300 mindən artıq insan bu xəstəlikdən əziyyət çəkir




**Şəkərli diabet insulin ifrazının, insulin təsirinin və ya hər ikisinin pozulması nəticəsində meydana çıxan qan şəkərinin yüksəlməsi ilə gedən xroniki metabolik xəstəlikdir. Son illər ən çox rast gəlinən xəstəliklər sırasında yer alan şəkərli diabetin müxtəlif tipləri var. Daha çox yayılan növü isə 35-40 yaşdan sonra ortaya çıxan tip 2 diabetdir.**

Tip 2 diabet zamanı mədəaltı vəzidə yetərincə insulin ifraz olduğu halda hüceyrələrdə olan reseptorların işləməməsi səbəbindən insulin hormonuna qarşı həssaslıq itir. Bu zaman qlükoza insulin tərəfindən hüceyrələrə daşına bilmir və onun miqdarı qanda çoxalmağa başlayır. Bu vəziyyət ağız quruması, çəki itkisi, çox su içmək və yemək kimi simptomlarla təzahür edir. Əvvəllər xəstəliyə daha çox yaşlılar arasında rast gəlinirdisə, indi uşaqlar arasında müşahidə edilir. Risk qrupuna isə ailəsində şəkər, ürək-damar xəstəlikləri, artıq çəkidən əziyyət çəkən, hipertoniyası olan, 45 yaşından yuxarı şəxslər aiddir.

Diabet xəstəliyi özünü üç əsas əlamətlə biruzə verir ki, bunlar normadan çox yemə və doymama hissi, tez-tez sidiyə çıxma, ağızda quruluq və buna bağlı olaraq həddindən artıq su içmək istəkləridir. Mütəxəssislər şəkər xəstəliyinin yaranma səbəbini əsasən genetik və ətraf mühit amillərinin birlikdə təsiri ilə əlaqələndirirlər.

### Ötən il 30 mindən çox yeni diabet xəstəsi qeydə alınıb

Son illər Azərbaycanda da şəkərli diabet xəstələrinin sayının artdığı qeyd olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkəmizdə ilk dəfə şəkərli diabet diaqnozu qoyulmuş xəstələrin sayı 30 236 nəfər olub. Bu göstərici 2020-ci ildə 25 430 nəfər olub. Rəqəmlər də göstərir ki, ildən-ilə şəkərli diabet xəstələrinin sayı artır. Təbii ki, genetik faktorlar burada xüsusi yer tutsa da, mütəxəssislər son illərdə müxtəlif xəstəliklərin sayının artmasını, yeni xəstəliklərin meydana gəlməsini qəbul etdiyimiz qidalarla bağlayırlar.

Son statistikaya əsasən, hazırda ölkəmizdə diabet xəstələrinin sayı 300 minə yaxındır. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, dünyada 537 milyondan çox insan şəkərli diabetdən əziyyət çəkir. Ölüm səbəbinə görə şəkərli diabet kardioloji və onkoloji xəstəliklərdən sonra üçüncü yerdədir. Bu xəstəlik tək tibbi yox, həm də sosial, iqtisadi, psixoloji problemlər yaradır.

### Tez-tez virus infeksiyalarına tutulma, stres şəkərli diabetə təkan verə bilər

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, endokrinoloq Səbinə Məşədiyeva-Bayramovanın sözlərinə görə, Azərbaycanda da diabet xəstələrinin sayında artım müşahidə olunur. Bütün dünyada olduğu kimi, ölkəmizdə də bu xəstələrin 85-90 faizində 2-ci tip şəkərli diabet diaqnozu qoyulur.

Həkim bildirir ki, şəkərli diabet hazırda ən geniş yayılmış endokrin xəstəlikdir. Şəkərli diabet tip 1 xəstəliyinin inkişafı üçün əsas risk faktorlarından biri genetikadır. Bu tip diabetin güclü genetik komponenti var və inkişafının 50 faizindən çoxu genetik faktorlardan asılıdır. Şəkərli diabet tip 1 xəstəliyinin yaranma ehtimalını artıran səbəblər isə valideynlərin birində və yaxud ikisində də həmin xəstəliyin olması, yaxud xəstəliyin geninin daşıyıcılığı, xarici faktorlar isə virus infeksiyaları sayılır. Təkanverici amil kimi isə tez-tez virus infeksiyalarına tutulma, immun sisteminin zəifliyi, stres vəziyyətlər ola bilər.

Həkimin sözlərinə görə, şəkərli diabet tip 2 xəstəliyinin yaranma ehtimalını artıran səbəblərə isə piylənmə, arterial hipertenziya, hiperlipidemiya (insanın qanında lipidlərin və ya lipoproteinlərin anormal yüksəlməsi), oturaq həyat tərzi, aşağı fiziki aktivlik və s. aiddir.

Səbinə Məşədiyeva-Bayramova deyir ki, qanda şəkəri normada saxlamaq üçün ilk növbədə pəhrizə əməl etmək lazımdır: "Bu, müalicənin artıq 60-70 faizini təşkil edir. Qalan hissə isə şəkərsalıcı dərmanların və yaxud insulin preparatlarının üzərinə düşür. Dərman qrupu hər bir xəstəyə görə individual seçilməlidir. Həmçinin qanda şəkəri normada saxlamaqda fiziki aktivliyin böyük rolu var".

### Həkim tövsiyələri

Həkim bu xəstələrə gün ərzində 7-8 km piyada gəzməyi tövsiyə edir. Eyni zamanda təyin olunan preparatlar vaxtında və təlimata uyğun olaraq qəbul edilməlidir. Özbaşına dərman qəbulunu dayandırmaq, dəyişmək və ya dozanı artırıb-azaltmaq olmaz. Bu, insulin müalicəsi alan xəstələrə də aiddir.

Mütəxəssis qeyd edir ki, şəkərli diabet xəstələrinə tez həll olunan karbohidratları qida rasionlarından çıxarmağı tövsiyə edir. Qida qəbul edərkən gec həll olunan karbohidratların, yağların və zülalların nisbəti düzgün tənzimlənməlidir. Meyvə payını sutkada bir neçə yerə bölmək və onları əsasən yeməkdən sonra qəbul etmək lazımdır.

O bildirir ki, şəkərli diabet tip 2 xəstələrində əksər hallarda hipertoniya, ürəyin işemik xəstəliyi də olur. Şəkərli diabet tip 1 xəstələrində isə birincili qalxanvari vəzin çatışmazlığı müşahidə edilir. Şəkərli diabet tip 2 "metabolik sindrom" adlanan bir vəziyyətdən sonra yaranır. O sindromun bütün təzahürləri artıq şəkərli diabet tip 2 xəstəsində də olur. Eyni zamanda şəkərli diabetə bəzi genetik sindromlardan əziyyət çəkən xəstələrdə də rast gəlinir.

Həkim deyir ki, əvvəllər gizli gedən mərhələlərdə diaqnoz qoyulmurdu. Hazırda müasir aparatlar vasitəsilə bu diaqnozu daha erkən qoymaq mümkündür. Xəstəliyin başlanğıc mərhələsində sağlam həyat tərzi, həkimə vaxtında müraciət, pəhriz və müntəzəm fiziki məşqlər çox vacibdir. Bu, ağırlaşmanın qarşısını alır.

Mütəxəssislərin fikirlərindən belə qənaətə gəlmək olur ki, texnoloji inkişaf nəticəsində oturaq iş, passiv həyat tərzi, stress hallarının artması, eyni zamanda sağlam qidalanmama, yəni kalorili məhsullardan, "fast food", hazır yeməklərdən daha çox istifadə edilməsi şəkərli diabet xəstələrinin sayını artırır. Xəstəlik aşkarlanmamışdan əvvəl qabaqlayıcı tədbirlərin görülməsi daha effektli olur. Bunun üçün isə fiziki aktivlik olmalı, sağlam qidalanmaya üstünlük verilməli, mümkün qədər stresdən uzaq durulmalıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Dünya yoluxucu viruslarla mübarizədədir

## Ümumdünya Səhiyyə Təşkilatı meymunçiçəyi ilə bağlı yeni təlimatlar verib

Hazırda yoluxucu viruslardan olan meymunçiçəyi qlobal epidemiya halı kimi qiymətləndirilir. Bununla bağlı məlumat verən Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, meymunçiçəyinin qlobal epidemiya elan edilməsi virusun insandan insana ötürülməsini dayandırmaq, irəliləmənin qarşısını almaq üçün güclü ictimai sağlamlıq tədbirlərini həyata keçirmək əhəmiyyəti daşıyır.

Bütün bunlarla yanaşı, peyvəndlərdən də düzgün istifadə mübarizədə yardımçı vasitədir.

### Xəstəliyin müalicəsi üçün ilk təcrübə

ÜST-ün Strateji Məsləhətçi Ekspertlər Qrupunun (SAGE) ötən günlərdə meymunçiçəyi xəstəliyinə qarşı təqdim etdiyi təlimatda bir neçə məqam vurğulanıb.

Hazırda bu virusa qarşı kütləvi peyvəndin tələb və tövsiyə olunmadığı, yoluxmuş biri ilə təmasdan sonra 4 gün ərzində müvafiq ikinci və ya üçüncü nəsil peyvənd olunmaq lazım gəldiyi, həmçinin ilkin profilaktik tədbir kimi virusa məruz qalma riski yüksək olan şəxslərin, o cümlədən yoluxmuş xəstələrlə işləyən tibb və laboratoriya işçilərinin vaksinasiyasının zəruri olduğu bildirilir. Bunlarla yanaşı, təlimatda o da qeyd olunub ki, səhiyyə qurumları xəstəliklə və peyvəndlərin təsiri ilə bağlı məlumat toplamaq üçün daim gedişata yaxından nəzarət etməlidirlər. Peyvəndlərin risk və faydalılığının tam qiymətləndirilməsi əsas şərtdir.

Oksford Universiteti isə meymunçiçəyi xəstəliyinin müalicəsi üçün yeni eksperimentə başlayıb. Belə ki, COVID-19-a qarşı mübarizədə iştirak edən "RECOVERY" adlı araşdırma qrupu meymunçiçəyi xəstəliyinin müalicəsi üçün ilk təcrübəni həyata keçirəcəyini açıqlayıb. "PLATINUM" adlandırılan ekperimentdə təxminən 500 iştirakçı 14 gün ərzində gündə iki dəfə antiviral dərman qəbul edəcəklər.

### Meymunçiçəyi uşaqlar arasında hələ ki risk təşkil etmir

Meymunçiçəyi indiyədək 46 mindən çox yoluxma faktı ilə 98 ölkəyə yayılıb. Ümumilikdə isə 13 nəfər bu xəstəlikdən dünyasını dəyişib.

Növbəti dərs ilinin başlaması isə valideynlər arasında meymunçiçəyi ilə bağlı təşviş yaradıb. Bununla bağlı vəziyyəti şərh edən Corc Vaşinqton Universitetinin professoru Leana Ven qeyd edir ki, meymunçiçəyi əsasən uzunmüddətli, birbaşa, dəridən dəriyə təmas nəticəsində yayılır. "Bu, COVID-19-dan nisbətən fərqlənir. Belə ki, koronavirus son dərəcə yoluxucu və hava-damcı yolu ilə keçdiyindən eyni otaqda olmaq kifayət edir ki, xəstəliyə yoluxasan. Ancaq meymunçiçəyində belə deyil. Meymunçiçəyi virusa yoluxmuş birinin əşyaları (dəsmal, qab və s.) vasitəsilə də keçə bilər. Məktəbdə isə uşaqlar arasında yayılması çox az ehtimaldır. Bunun üçün gərək uzunmüddətli fiziki təmas olsun".

Həkim onu da vurğulayır ki, bu günə qədər ABŞ-da uşaqlar arasında meymunçiçəyinə yoluxma faktı qeydə alınmayıb: "Buna görə hələ ki uşaqlarla bağlı narahatlığa əsas yoxdur. Hər kəsi virusun əlamətlərini bilməyə və diqqətlə olmağa səsləyirəm. Əksər hallarda meymunçiçəyi qızdırma, limfa düyünlərinin şişməsi və səpki şəklində özünü göstərir ki, bu da sonradan səpkilərin qabarmasına səbəb olur. Ancaq qızdırma və limfa düyünlərinin şişməsi həmişə olmaya da bilər. Bədəninizin hər hansı bir yerində qabarıq səpkilərə rastladığınız an mütəxəssislərə müraciət etməyiniz vacibdir".







### Dünyada son bir həftə ərzində koronavirusa yoluxma nisbətən azalıb

Koronavirusa yoluxmada dünyada son bir həftədə nisbətən azalma müşahidə edilib. 3 gün əvvəl Ümumdünya Səhiyyə Təşkilatının epidemioloji vəziyyətlə bağlı yaydığı məlumatda bildirilir ki, koronavirusdan ölüm halları 15 faiz, yeni yoluxma hallarının sayı isə 9 faiz azalıb.

BMT Səhiyyə Agentliyinin COVID-19 pandemiyası ilə bağlı vəziyyət barədə son həftəlik hesabatına görə isə, ötən həftə 5,3 milyon yeni yoluxma və 14 mindən çox ölüm faktı qeydə alınıb. ÜST bildirib ki, Sakit okeanın qərb hissəsi istisna olmaqla, dünyanın bütün regionlarında yeni infeksiyaların sayı azalıb.

Hazırda dünyada koronavirusun ən geniş yayılmış növü "Omikron" ştamının BA.5 altvariantıdır. Son bir ayda yoluxmaların 70 faizini BA.5 altnövü, ümumi yoluxmaların 99 faizini isə "Omikron" ştamı təşkil edib. Məhz bu ştam və onun altnövlərinə uyğun hazırlanmış vaksinlər mövcuddur ki, bunlardan biri də "Pfizer" şirkətinin istehsalıdır. "Omikron"un BA.4 və BA.5 kimi ən yeni variantlarından müdafiə olunmağa birbaşa təsir göstərən bu vaksinin istifadəsinə ABŞ-ın nizamlama orqanları tərəfindən icazə verilməsi gözlənilir.

Ölkəmizdə isə koronavirusla bağlı vəziyyət həftə ərzində stabil olub. Yoluxma sayının qarşıdan gələn payız fəslində artmaması və hazırkı sayın azalması üçün isə gigiyenik qaydalara riayət etmək lazımdır. Gözlənilən təhlükə səbəbindən qapalı yerlərdə maska taxılması da tövsiyə edilir. Vaksin isə daimi qurtuluş və müdafiə vasitəsidir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi və kollektivi fövqəladə hallar nazirinin müavini

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini, daxili xidmət general-leytenantı

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi fövqəladə hallar nazirinin müavini

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev ailəsi ilə birlikdə Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini, daxili xidmət general-leytenantı

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6372**
**Sifariş 2349**
**Qiyməti 40 qəpik**